Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 140 (5800) 17 oktyabr 2020-ci il | Qiyməti 30 qəpik

## "Şuşasız bizim işimiz yarımçıq qalar"



"Mən Azərbaycanın kəndlərini, ərazilərini bir-birindən fərqləndirmirəm. Amma Şuşasız bizim işimiz yarımçıq qalar. Bizə danışıqlar prosesində təklif edirdilər ki, 5 rayon, sonra 2 rayon verilsin. Bizə deyirdilər bütün əraziləri istəməyin, belə kompromis olmur. Şuşanın azad edilməsi bizim hədəflərimiz arasındadır, nə zaman olacaq, bunu görərik".

Bunu Prezident İlham Əliyev Türkiyənin "A Haber" kanalına müsahibəsində deyib.

## "Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində paylaşım edilib.

Adalet.az xəbər verir ki, paylaşımda deyilir:

"Nə dərəcədə insaniyyətdən kənar, rəhmsiz və mənəvi tənəzzülə uğramış olmalısan ki, dəfn mərasimi zamanı qəbiristanlığı qəsdən atəşə tutasan? Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram. Həlak olanların ailələrinə və doğmalarına başsağlığı verirəm. Allah rəhmət eləsin".

## İRADƏ TUNCAYDAN GÜNÜN STATUSU



Siyasi iradə belə anlayışdı - 10 günə 10 milyon səni qeyri-şərtsiz dəstəkləyir. Və dünya səndən danışır!!!

***Mehman CAVADOĞLU***



## Güclülər də qalibləri sevir

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu İsveçli həmkarıyla birgə keçirdiyi mətbuat konfransında maraqlı açıqlama ilə çıxış edib. İndiki mərhələdə Minski qrupunun 9+2 formatında görüşünün keçirilməsinin vacibliyindən danışaraq deyib:

"Biz artıq belə bir təkliflə çıxış etmişik. Həmsədrlər Minski qrupu qarşısında hesabat verməlidirlər, indiyədək hansı işlərin görüldüyünə, konfliktin niyə nizamlanmamasına aydınlıq gətirməlidirlər. Problemin yeganə həll yolu erməni qoşunlarının işğal etdikləri ərazilərdən çıxarılmasıdır. Yalnız bundan sonra beynəlxalq birliyin həqiqətən münaqişəni həll etmək üçün real cəhdlər göstərdiyindən danışmaq olar".

(Ardı 3-cü səhifədə)

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***



## RAKET ORDUBADA DEYİL, RUSİYAYA ATILIB

Ermənistan silahlı qüvvələri Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunu raketlə vurub. Əslində bu raket Ordubada deyil, Rusiyaya atılıb. Ortada Qars müqaviləsi var və bu Qars müqaviləsini də Rusiya ilə Türkiyə bağlayıb. Bu müqavilə haqqında hamımızın xəbəri var, geniş yazmağa ehtiyac yoxdur.

Ermənistan elə bilir ki, özləri kimi hamı çörəyi qulağına yeyir. Amma heç kəs çörəyi qulağına yemir və onda ki Rusiya kimi möhtəşəm bir dövlət. Və bu möhtəşəm dövləti idarə edən dünyanın ən məşhur siyasətçilərindən və dünya liderlərindən biri Putin.

(Ardı 2-ci səhifədə)

## *Robert de Niro Azərbaycan Silahlı Qüvvələr Fonduna 1 milyon dollar yardım edib*

Tanınmış Hollivud ulduzu, amerikalı aktyor Robert de Niro Azərbaycan Silahlı Qüvvələr Fondunda 1 milyon dollar yardım edib. Adalet.az xəbər verir ki, bu haqda sosial şəbəkədə məlumat yayılıb.

Sosial şəbəkədə ermənilər Robert de Nironun bu addımına görə boykot etməyə çağırış edib.



## Türkiyə açıqladı: Ordubadın atəşə tutulması...

**Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Qubadlı rayonundan Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Ordubad rayonuna atılan raket hücumunu sərt şəkildə qınayırıq.**

Bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında vurğulanıb. "Ermənistan işğal etdiyi torpaqlarda aldığı məğlubiyyətə görə hər gün daha da azğınlaşır", - məlumatda bildirilib.

**Qeyd edək ki, Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Qubadlı rayonu ərazisindən atdığı əməliyyat-taktiki raket Ordubad rayonu ərazisində partlayıb. Dinc sakinlərə və mülki obyektlərə zərər dəyməyib.**

## İlham Əliyev: Mülki şəxslərə bu namərd hücumlar erməni faşizminin növbəti təzahürüdür



**Bu, erməni faşizminin növbəti təzahürüdür. Onlar adətən döyüş meydanında məğlubiyyətə uğrayanda mülki şəxslərə atəş açırlar. Bunu biz birinci Qarabağ savaşında da gördük. Məhz Xocalı soyqırımını törədənlər bizim həmin mənfur qonşularımızdır.**

Prezident İlham Əliyev bu barədə Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində Ermənistanın Tərtərdə dəfn mərasimi iştirakçılarını hədəfə almasından danışarkən bildirib.

"Bu dəfə də görəndə ki, artıq döyüş meydanında Azərbaycan Ordusu qarşısında acizdirlər və işğal edilmiş torpaqlarda bizə qarşı müqavimət göstərə bilmirlər, onlar yenə də mülki vətəndaşları hədəfə aldılar və namərd hücum nəticəsində bizim insanlarımız həlak oldular, həm Gəncədə, həm də dünən Tərtərdəki qəbiristanlıqda. Bu, insanların dəfn mərasimində iştirak etdikləri bir yerdir, hər bir insan üçün müqəddəs bir yer sayılır. Ancaq bizim mənfur qonşularımız üçün müqəddəs anlayışı görünür ki, yoxdur. Bu, insanlığa qarşı cinayətdir, bir daha Ermənistanın yırtıcı xislətini göstərir. Ancaq bir də onu göstərir ki, bu namərd hücumlar bizi yolumuzdan döndərə bilməz, Azərbaycan xalqının iradəsini qıra bilməz. Biz öz ərazi bütövlüyümüzü bundan sonra da bərpa etməyə davam edəcəyik", - deyə dövlətimizin başçısı vurğulayıb.

Mülki şəxslər arasında təlafat və dağıntılar barədə məlumat verən Azərbaycan Prezidenti qeyd edib ki, Gəncəyə, Tərtərə hücumlara baxmayaraq, biz heç zaman mülki şəxslərə qarşı atəş açmamışıq, bu gün də açmırıq. Biz bu insanların qisasını döyüş meydanında alacağıq.Prezident İlham Əliyev deyib: "Bu namərd hücumlar davam edir. Onların əsas hədəfi mülki şəxsləri öldürmək, Azərbaycan əhalisi arasında panika, qorxu yaratmaq, bizi dayandırmaq və öz çirkin niyyətlərinə çatmaqdır. Ancaq görürlər ki, bu, alınmır və nə qədər mərmi düşürsə-düşsün Azərbaycan vətəndaşları öz torpağında qürurla yaşayırlar və bütün bu çətinliklərə dözürlər. Onları birləşdirən bir amal var - Qarabağın qaytarılması, Azərbaycan bayrağının işğal edilmiş bütün torpaqlarda qaldırılması və ərazi bütövlüyümüzün bərpa edilməsi".

## "Ermənistan ordusunun iki milyard dollarlıq silahını məhv etmişik"

**"Bizim apardığımız hesablamalara görə, müharibə başlayan zamandan Ermənistan ordusuna iki milyard dollar ətrafında ziyan dəyib. Hazırda bu, davam edir".**

Bunu Prezident İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində bildirib.

Prezident qeyd edib ki, Ermənistanın büdcəsi, valyuta ehtiyatları məlumdur: "Bu müharibə günlərində onların iki milyard dollarlıq silahları məhv edilibsə, hələ də bu silahlar var. Məhv edilən silahlar işğal olunmuş torpaqlardadır.

Ermənistan ərazisində silahlar var. Haradan aldılar bu silahları? Haradan bu pulu tapdılar? Təbii ki, onlarda bu pul yoxdur. Dəmək ki, pulsuz alıblar".

"Mən Ermənistan rəhbərliyinə də müraciət etmişəm - atəşkəsə əməl edin, bizə təqvim verin, torpaqlarımızdan çıxın. Bu müharibə dayansın, siz də qalan silahlarınızı qoruyun. Yoxsa belə gedərsə, onların bütün silahlarını biz məhv edəcəyik" ,- deyə İ.Əliyev vurğulayıb.

## "Ermənistan bütün vasitələrlə münaqişənin ərazisini genişləndirməyə çalışır"



**Ermənistan Naxçıvanın Ordubad rayonuna raket zərbəsi endirib. Adalet.az-ın məlumatına görə, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev öz "Twitter" səhifəsində yazıb.**

O bildirib ki, bu addım Ermənistanın bütün vasitələrlə münaqişənin ərazisini genişləndirməyə çalışdığını göstərir: "Ermənistan Azərbaycanın döyüş zonasından kənardakı şəhərlərinə raket atəşi açır. Bütün məsuliyyət Ermənistanın üzərinə düşür".

## Bu günə qədər işğaldan azad olunmuş ərazilər

**Sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatı ilə başlamış döyüşlər nəticəsində onlarla yaşayış məntəqəsi işğaldan azad olub. Adalet.az həmin ərazilərin adlarını və azad olma tarixlərini təqdim edir:**

**16.10.20 Axullu kəndi (Xocavənd)**
**16.10.20 Ağbulaq kəndi (Xocavənd)**
**16.10.20 Xırmancıq kəndi (Xocavənd)**

**15.10.20 Arış kəndi (Füzuli)**
**15.10.20 Doşulu kəndi (Cəbrayıl)**
**15.10.20 Edişə kəndi (Xocavənd)**
**15.10.20 Düdükçü kəndi (Xocavənd)**
**15.10.20 Edilli kəndi (Xocavənd)**
**15.10.20 Çiraquz kəndi (Xocavənd)**

**14.10.20 Qarabağlı kəndi (Füzuli)**
**14.10.20 Xatunbulaq kəndi (Füzuli)**
**14.10.20 Qarakollu kəndi (Füzuli)**
**14.10.20 Bulutan kəndi (Xocavənd)**
**14.10.20 Məlikcanlı kəndi (Xocavənd)**
**14.10.20 Kəmərtük kəndi (Xocavənd)**
**14.10.20 Təkə kəndi (Xocavənd)**
**14.10.20 Tağaser kəndi (Xocavənd)**

**09.10.20 Hadrut qəsəbəsi (Xocavənd)**
**09.10.20 Yuxarı Güzlək kəndi (Füzuli)**
**09.10.20 Çaylı kəndi (Tərtər)**
**09.10.20 Gorazıllı kəndi (Füzuli)**
**09.10.20 Qışlaq kəndi**
**09.10.20 Qaracallı kəndi (Cəbrayıl)**
**09.10.20 Əfəndilər kəndi (Cəbrayıl)**
**09.10.20 Süleymanlı kəndi (Cəbrayıl)**
**09.10.20 Sur kəndi (Xocavənd)**

**05.10.20 Şıxəli Ağalı kəndi (Cəbrayıl)**
**05.10.20 Sarıcalı kəndi (Cəbrayıl)**
**05.10.20 Mərzə kəndi (Cəbrayıl)**
**05.10.20 Bir neçə strateji yüksəkliklər**

**04.10.20 Cəbrayıl şəhəri**
**04.10.20 Daşkəsən kəndi (Cəbrayıl)**
**04.10.20 Decal kəndi (Cəbrayıl)**
**04.10.20 Karxulu kəndi (Cəbrayıl)**
**04.10.20 Şükürbəyli kəndi (Cəbrayıl)**
**04.10.20 Çərəkən kəndi (Cəbrayıl)**
**04.10.20 Horovlu kəndi (Cəbrayıl)**
**04.10.20 Mahmudlu kəndi (Cəbrayıl)**
**04.10.20 Cəfərabad kəndi (Cəbrayıl)**
**04.10.20 Yuxarı Maralyan (Cəbrayıl)**

**03.10.20 Suqovuşan (Ağdərə)**
**03.10.20 Talış kəndi (Tərtər)**
**03.10.20 Mehdili kəndi (Cəbrayıl)**
**03.10.20 Çaxırlı kəndi (Cəbrayıl)**
**03.10.20 Aşağı Maralyan (Cəbrayıl)**
**03.10.20 Şəybən kəndi (Cəbrayıl)**
**03.10.20 Quycaq kəndi (Cəbrayıl)**

**27.09.20 Qaraxanbəyli (Füzuli)**
**27.09.20 Qərvənd kəndi (Füzuli)**
**27.09.20 Kənd Horadiz (Füzuli)**
**27.09.20 Aşağı Əbdülrəhmanlı (Füzuli)**
**27.09.20 Yuxarı Əbdülrəhmanlı (Füzuli)**
**27.09.20 Böyük Mərcanlı (Cəbrayıl)**
**27.09.20 Nüzgar kəndi (Cəbrayıl)**
**27.09.20 Murovdağı zirvəsi**

*Aqil ABBAS*

# RAKET ORDUBADA DEYİL, RUSİYAYA ATILIB

(əvvəli 1-ci səhifədə)

**Heç kəsə sirr deyil ki, ABŞ və Avropa ölkələri SSRİ-nin dağılmasının özülünü Dağlıq Qarabağda qoydular və istədiklərinə nail oldular. Türklər demiş, ermənilərdən maşa kimi istifadə etdilər.**

**İndi ABŞ-ın və Avropa ölkələrinin, əsas da İngiltərənin məqsədi Rusiyanı parçalayaraq məhv etməkdi. Və yenə də ermənilərdən bir maşa kimi istifadə edirlər. Həm Ermənistan ərazisindən ballistik raketlərlə Gəncə şəhərinin dinc əhalisini atəşə tutmaqla, Mingəçevir SES-ni nişana almaqla, Bakı-Ceyhan neft kəmərini partlatmaq istəyi ilə, cəbhə xəttindən 120-130 km. aralıdakı Ucar rayonunun Ləki kəndini raketlə vurmaqla və ən nəhayət, Naxçıvana raket atmaqla Ermənistan üçüncü, dördüncü ölkələri, xüsusilə də Rusiya və Türkiyəni Qarabağ müharibəsinə cəlb etmək istəyir. Çünki Qars müqaviləsinə görə Türkiyə Naxçıvana Ermənistan tərəfindən atılan raketə görə bu düşmən ölkəyə Naxçıvanı müdafiə məqsədilə qoşun yeridə bilər.**

**Və bu halda Ermənistanın da Kollektiv Təhlükəsizlik Müqaviləsi Şurasının üzvlərini köməyə çağırma hüququ var. Və beləliklə, Rusiya ilə Türkiyəni qarşı-qarşıya gətirə bilər. Başda ABŞ olmaqla, Avropa ölkələrinin də məqsədi odur ki, artıq strateji müttəfiq olmağa hazırlaşan Rusiya və Türkiyəni zəiflətsin və hər iki ölkəni sıradan çıxarsın.**

**Amma bu dəfə keçməz. Çünki hörmətli Ərdoğan da, hörmətli Putin də bu oyuna gəlməz. Çünki hər ikisi hazırda dünya siyasətini yönləndirən şəxslərdi. Və həddindən artıq soyuqqanlıdılar, hər şeyi yüz ölçüb, sonra birgə bir biçirlər.**

**Mən dəfələrlə yazmışam, yenə yazıram, dünyanın müharibələrdən xilası Rusiya ilə Türkiyənin dostluğundan keçir. Və Azərbaycan da bu dostluğu möhkəmləndirən bir dövlətdir. Və Azərbaycanın da artıq dünya siyasətinin qəbul etdiyi bir lideri, Ali Baş Komandanı İlham Əliyev kimi bir prezidenti var.**

## *DTX növbəti dəfə erməni terroru barədə xəbərdarlıq edir*



**Dövlət Təhlükəsizliyi Xidmətinə (DTX) daxil olmuş məlumatlara əsasən, Ermənistan xüsusi xidmət orqanları cəbhədə öz ordularının silsilə məğlubiyyətlərini örtbasdır etmək məqsədilə Azərbaycan Respublikasının böyük şəhərlərində insanların sıx cəmləşdiyi yerlərdə, ictimai nəqliyyatda terror-təxribat və digər pozuculuq aktlarını həyata keçirmək, bununla da keçən əsrin 80-ci illərin sonu və 90-cı illərdə Bakıda və ölkəmizin başqa yerlərində dinc əhaliyə qarşı törətdikləri mənfur və insanlığa sığmayan qanlı terror əməllərini təkrarlamaq niyyətindədirlər. Adalet.az DTX-nin saytına istinadən xəbər verir ki, Ermənistan dövlət səviyyəsində terroru dəstəkləyən və terror əməllərini həyata keçirən dövlətdir. Hal-hazırda Ermənistan silahlı qüvvələrinin və xüsusi xidmət orqanlarının tərkibində Yaxın Şərq ölkələrindən gətirilmiş terrorçular xidmət edir. Vətəndaşları gündəlik həyat və iş ahəngini pozmadan və təşvişə qapılmadan ayıq-sayıq olmağa çağırır, yaşadıqları ərazilərdə şübhəli şəxslər, hərəkət və əşyalar barədə məlumatları (012) 4059999 nömrəli telefonla Dövlət Təhlükəsizliyi Xidmətinə, eləcə də yerli polis və digər hüquq mühafizə orqanlarına bildirmələri xahiş olunur. Eyni zamanda son dövrlərdə erməni terror təşkilatı olan ASALA-nın fəallaşdığını nəzərə alaraq, xarici ölkələrdəki Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və diplomatik heyəti, diaspora təmsilçilərini və ölkəmizə aid şirkətlər və onların əməkdaşlarını ayıq-sayıq olmağa və şübhəli hallar müşahidə edildikdə yerləşdikləri ölkələrin hüquq mühafizə orqanlarına müraciət etməyi tövsiyə edirik.**

***Mehman Cavadoğlu***

# Güclülər də qalibləri sevir

**(əvvəli 1-ci səhifədə)**

**Çavuşoğlu haqlıdır, çünki bu qrup çoxdan öz funksional əhəmiyyətini itirib. Təzə yarandığı vaxtlarda cəmiyyətdə onlara böyük inam var idi, hər səfərləri, hər görüşləri maraqla izlənir, diskussiyalara səbəb olurdu. İnsanlar bu vasitəçi missiyanın bölgəyə ədalətli sülh gətirəcəklərinə ümid bəsləyirdilər. Lakin illər, onillər ötdü, proses başladığı yerdə ilişib qaldı, çıxılmaz dalana dirəndi, düşdüyü ölü nöqtədən tərpənmək bilmədi.**

Açıq-aşkar hiss olunurdu ki, məsələnin acı bağırsaq kimi sonsuzluğa doğru uzanması nəinki ermənilərin, elə vasitəçilərin də marağındadır və onlar status-kvonu davam etdirmək yoluyla Azərbaycanı işğal faktıyla barışdırmaq taktikası seçiblər.

Proses uzandıqca adamlarınonlara olan inamı da ölür, bir vaxtlar ümidlə baxdıqları "sülh göyərçinləri" getdikcə istehza və lağ obyektinə çevrilir, hər səfərlərinə, hər "yeni təkliflərinə" yüz şəbədə qoşulurdu. Bir vaxtlar ölkədə kimdən soruşsaydınız həmsədrlərin adlarını əzbər söyləyərdilər. İndi onların kimliyini heç oxumuş adamlar da düz-əməlli bilmir, adlarını yazmamışdan əvvəl "Google"də eşələnməyə məcbur olur.

Həmsədr ölkələrin hər üçünün "erməni sevdalı" olduğu heç kimə sirr deyil.

Makronun son açıqlamalarından sonra isə Fransanın bu münaqişənin nizamlanması prosesində iştirak eləməyə nə siyasi, nə də mənəvi haqqı çatır. Odur ki, ya özləri bunu başa düşüb kənara çəkilməli, ya da Azərbaycan onun vasitəçiliyindən qəti şəkildə imtina etməlidir. Artıq o dərəcədə həyasızlaşıblar ki, Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımaq məsələsini parlamentdə müzakirəyə çıxarmağa hazırlaşırlar.

Tovuz döyüşlərindən sonra bir çox xarici ölkələrdəki erməni və Azərbayca diasporu arasında böyük çalxalanmalar baş verdi.

Bu, münaqişənin 30 illik tarixində yeni hadisəydi. Ermənilər bir əsrdən çoxdur ki, Qərbin siyasi kuluarlarında və siyasi terror müstəvisində apardıqları antitürk və antiazərbaycan davasını küçələrə daşıdı, yaşadıqları ölkələrdə qarışıqlıq salmaqla həmin dövlətlərin diqqətini yenidən öz əzabkeş obrazlarının üzərinə yönəltməyə çalışdılar. Amma gözləmədikləri mənzərəylə üzləşdilər.

Azərbaycanın xeyli cavan diasporu onların bütün əməllərinə artıqlamasıyla, həm də adekvat cavab verdilər. Təkləyib döydülər, təklənib döyüldülər, kütləvi dava saldılar, kütləvi davayla üzləşdilər, obyektlərimizi dağıtdılar, obyektləri viran qoyuldu, dinc yürüşlər keçirdilər, daha coşqulu yürüşlərə tamaşaçı oldular.

Ordumuzun son günlərdəki zəfər yürüşlərisə başqa bir vacib məqamı üzə çıxardı. Məlum oldu ki, dünya dövlətləri artıq Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini başa düşməyə başlayıblar. Əslində, əvvəllər də bunu başa düşür, ancaq etiraf etmirdilər. Əvvəlki illərə nisbətən daha çox ölkə məsələyə Azərbaycanın ərazi bütövlüyü prizmasından yanaşdılar ki, bunu da diplomatiyamızın və uzun illər sərgilədiyimiz qətiyyətli mövqeyin bəhrəsi hesab etmək olar.

Nəhayət, xarici KİV-lər də artıq tam olaraq Ermənistanı mövqeyini müdafiə eləmir. Əvvəlki dövrlərə nisbətən Azərbaycanın haqq səsi daha tez-tez eşidilməyə başlayır.

Təbii ki, ən azı bir əsrlik tarixə malik erməni diasporunun dünya siyasətinə təsir imkanları bizimlə müqayisədə hələ də qat-qat çoxdur.

Bu dediklərimiz, sadəcə, son 30 ildə nail olduğumuz gəlişmələrdir ki, onu getdikcə daha mütəşəkkil hala gətirmək qarşımızda duran ən əsas vəzifələrdən biri olmalıdır.

Bizim diasporun Azərbaycan ideyası ətrafında cəmlənməsinin yuxarıda da dediyimiz kimi vur-tut 30 illik tarixi var. Bu çox olmasa da az müddət də deyil. Üstəlik, Avropa xalqlarıyla aramızdakı mental fərqlər, özümüzün bir millət olaraq başqa cəmiyyətlərə inteqrasiyayaya həvəsli və səriştəli olmamağımız, nəhayət, diaspor siyasətində üstünlük verdiyimiz yanlış istiqamətlər də prosesi ləngidən amillərdəndir.

Bu gün qardaş Türkiyə həmişəki kimi Azərbacanın yanındadır və ordumuzun haqq davasında ona hər cür mənəvi dəstək göstərir. Birinci Dünya Müharibəsindən sonra üzləşdiyi məğlubiyyətdən sonra əsrlər boyu Osmanlını çökdürmək istəyən Avropa gücləri, nəhayət ki, öz istəyinə çatdılar və 10 avqust 1920-ci ildə ona biabırçı Sevr müqaviləsinin şərtlərini diqtə etdilər. Böyük Atatürkün başladığı İstiqlal Savaşı nəticəsində hərb meydanında möhtəşəm qələbələr qazanıldıqdan, işğalçılar ölkədən qovulduqdan sonra həmin müqavilə lazımsız bir kağız parçası kimi tarixin zibilliyinə atıldı, 24 iyul 1923-cü ildə bağlanmış Lozanna müqaviləsiylə bugünkü Türkiyə Cumhuriyyətinin əsası qoyuldu. İndi bu dövlət dünya siyasətinin əsas söz sahibi, aparıcı oyunçularından biridir.

Onu bu qədər güclü edən məhz həmin İstiqlal Savaşında əldə etdiyi parlaq qələbələr oldu.

**Danışıqlar masasında sözünün kəsərli və keçərli olması üçün hərb meydanında qələbələrə imza atmalısan. Bu gün şanlı Azərbaycan ordusunun ard-arda qazandığı parlaq qələbələrə hər vasitə ilə mane olmaq istəyənlər sabah onunla hesablaşmağa məcbur olacaqlar. Şübhə etməyin. İşartıları elə indidən görünməyə başlayır. Rusiyanın, ABŞ-ın və bir çox başqalarının bügünkü ritorikalarında əvvəlki amiranə ahəngin öləziməsinin də kökündə məhz bu amil dayanır. Ona görə də "irəli, Azərbaycan ordusu!" Hətta güclülər də qaliblərin yanında durmaqdan qürur duyur.**

***P.S.** Bilmək olmaz hələ bundan sonra Minsk qrupuna ehtiyac qalacaq, ya yox.*

***Aqil ABBAS***

# ƏBÜLFƏT MƏDƏTOĞLU, TUT ARAĞI VƏ ZAKİR FƏXRİ NİYƏ ÖZÜNDƏN ÇIXDI?

**Cəbhədəki gərginlik demək olar ki, bütün millətə sirayət edib. Hamımızın ürəyi döyüş meydanındakı əsgərlərimizin yanındadı. Az qala onların nəfəslərini hiss edirik. Yəqin ki, onlar da bizlərin nəfəsini hiss edirlər. Və küreklərində xalqın nəfəsini hiss etdiklərindən hər gün yeni zəfərlərə imza atırlar. 20 gündə 40-dan çox kənd, 1 şəhər, 1 qəsəbə düşmən işğalından azad olunub. Ordumuz müqəddəs bayrağımızı dalğalandıra-dalğalandıra üzü Şuşaya gedir.**



**Dedim bir az gərginliyi azaldım, bir xoş ovqat yaradım.**

**Deməli, belə. Şair Əbülfət Mədətoğlu məşhur Tuğ kəndindəndi. Bu kənddə əhali qırx-altmışadı. Yəni altmış faizi azərbaycanlılar, 40 faizi ermənilər. Cəfər Cabbarlının "1905-ci il" pyesində də hadisələr Tuğ kəndində cərəyan edir.**

**Tuğda Adəm və Həvva doğulmasa da cənnətin özü idi. İnşallah, görməyənlər gedib görəcək. Artıq ordumuz Tuğ kəndinin təxminən 1 kilometrliyindədi. Yəqin ki, bu gün-sabah Ali Baş Komandan İlham Əliyevin növbəti tivitində bu kəndin də adını oxuyacaqsınız.**

**Yay aylarında Əbülfətgilin kasıb daxmasında qonaq-qaradan yer tapılmazdı. Xüsusilə də Azərbaycanın məşhur şair və yazıçıları ailələri ilə Əbülfətgilə qonaq olardı.**

**Şair Ağa Laçınlının "Səmimiyyət" adlı bir şeiri var:**

*Ərk ilə evinə gəlmişəm, ay dost;*
*Görürəm, açıqdır qaşın-qabağın.*
*Komanı imarət bilmişəm, ay dost,*
*Nə gərək utanıb tər axıtmağın.*

*Səndən dünya malı ummayıram mən,*
*Sanma bəyənmirəm yavan loxmanı.*
*Doyursan qəlbimi səmimiyyətdən,*
*Bağrıma basaram kasıb daxmanı.*

**Və Əbülfətgilin "kasıb" daxması hamının üzünə açıqıydı. Və atası da öz səmimiyyətiylə hamını doydururdu.**

**Deməli, belə. Bir dəfə Əbülfət, mən, şair Zakir Fəxri və bir neçə dost oturub çörək yeyirdik. Təbii ki, yaralı qarabağlıların söhbəti də öz yaraları haqqındaydı. Birdən Əbülfət qayıtdı ki, Babək doğulanda 40 litr tut arağını palıd çəlləkdə həyətdə basdırmışdım ki, Babəkin sünnətində çəlləyin ağzını açacam.**

**Zakir Fəxri də dedi ki, ə, yekə kişisən, o qədər tut arağını erməniyə qoyub gələrlər?**

**Əbülfət o çəlləyin ağzını Babəkin sünnətində aça bilmədi, heç toyunda da aça bilmədi.**

**Həmin gün gəldim, qəzetdə bir anekdot yazdım.**

**Şairlər oturub yeyib-içirlər. Və birdən Əbülfət qayıdır ki, həyətdə palıd çəlləyində 40 litr tut arağı basdırmışdım.**

**Zakir Fəxrinin də kefi kökdü, qalxır ayağa, deyir hamınız durun.**

**- Zakir, niyə?**

**- Ə, dedim durun ayağa, durun.**

**Hamı məcbur olub qalxır və soruşur ki, nə olub.**

**Zakir Fəxri:**

**- Ə, belə kişilik olar? Gül kimi arağı razı ola bilmərik ki, erməni içsin. Getdik Tuğu azad etməyə!**

**Bu səhər işə gələndə Əbülfət çıxdı qarşıma. Həmin hadisə yadıma düşdü, güldüm. Əbülfət soruşdu ki, Məllim, nəyə gülürsən?**

**- Atillanın sünnəti nə vaxtdı?**

**Atilla Əbülfətin nəvəsidi, yəni Babəkin oğludu.**

**- Bu virusa görə saxlamışam, görək də. Nəyə görə soruşursan ki?**

**- Heç. Ordumuz bu gün-sabah Tuğu azad edəcək. Zakir Fəxrini də götürüb gedərik Tuğa, basdırdığın tut arağını çıxararıq Atillanın sünnətini edərik, kirvəsi də mən olaram.**

**Əbülfətin gözləri doldu, boynumu qucaqladı, dedi:**

**- İnşallah!**

**İNŞALLAH!**

**TANRI ƏSGƏRLƏRİMİZİ QORUSUN!**

**TANRI ALİ BAŞ KOMANDANIMIZI QORUSUN!**

**Layihənin istiqaməti: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

№ 117 (2151) 17 oktyabr 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu


# Ovuc içi qədər yaxın



**"Biz tarixi ədaləti bərpa edirik. Biz öz torpaqlarımızı işğaldan azad edirik. Biz müqəddəs torpaqlarımız uğrunda döyüşürük. Biz qalib gələcəyik. Yaşasın Azərbaycan ordusu! Qarabağ Azərbaycandır!".**

Bu fikirlər artıq ölkə vətəndaşlarının hər birinin yaddaşına yazılıb. Ali Baş Komandanın xalqımıza müraciətində vurğuladığı bu fikirləri artıq dünya ictimaiyyəti də eşidib, dinləyib. Və hər kəs anlayıb ki, Azərbaycan öz torpaqlarını işğalçılardan, terrorçulardan azad etmək üçün əks hücuma keçib. Bu əks hücum da ermənilərin kökünə birə salıb, yuxularını ərşə çəkib. Özü də təkcə onların yox, həm də onlara havadarlıq edən, onlara dəstək verən, onları silah-sursatla təmin edənlərin də... Təbii ki, sonuncuların müəyyən mənada "işləri sürətlənib". Yəni ermənini silahlandıranlar, ona silah satanlar özlərinin silah bazarlarının alış-verişini real müstəviyə köçürüblər. İndi onlar gizlin deyil, açıq şəkildə, hətta sərnişin təyyarələrindən, Ermənistan hökümətinin dövlət adamlarının xidmətində olan təyyarələrdə silah daşıyırlar. Bu silah daşımanın coğrafiyası da kifayət qədər genişdir. Belə ki, Rusiya, Fransa, İspaniya və daha neçə ölkə Ermənistanın humanitar yardım adı ilə silahlandırır. Və bunu da BMT, ATƏT, onun Minsk qrupu, eləcə də bütün dünya dövlətləri, bütün bəşəriyyət görür. Açıq şəkildə daşınan, silahlanan Ermənistan iqtidarı düşünür ki, bəlkə bu yolla Azərbaycana psixoloji təsir edib əks hücumunun qarşısını ala bilər. Amma artıq gecdir. 30 il səbr etmiş Azərbyacan xalqı, Azərbaycan hakimiyyəti indi bir yumruq kimi birləşib özünün pozulmuş hüquqlarını bərpa edir, ərazi bütövlüyünü canıyla, qanıyla tamamlayır.

**"Biz nəyi və nə vaxt edəcəyimizi yaxşı bilirik. Ona görə də bu gün bizim uğurlu əməliyyatlarımız böyük nəticələrə gətirib çıxartdı. Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində".** Bəli, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu fikirləri günümüzün reallığıdır, yaşadığımız zamanın sözlə ifadəsidir.



Hər bir Azərbaycan vətəndaşı kimi mən də bu 30 illik zaman kəsiyini gözlərimin qarşısında canlandırıram. Yaşadığımız ağrılı-acılı günləri, ayları xatırlayıram. Şahidlərin yaddaşında yəqin ki, zaman-zaman qalacaq gerçəkliklər var. Onlardan biri də o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olan keçmiş Hadrut və Martuni U (bugünkü Xocavənd rayonu -A.M.) ilə həmsərhəd olan kəndlərimizin ağır durumu idi. Hər cür silahlardan istifadə edən ermənilər bölgədə yerləşdirilmiş və missiyası da sülh yaratmaq olan sovet-rus ordusundan sözün bütün mənalarında yararlanaraq, kəndlərimizi, dinc sakinlərimizi atəşə tuturdular.

Evlər yandırılır, təsərrüfatlara ziyan vurulur, dinc sakinlər qətlə yetirilirdi. Bu barədə Bakıya, Moskvaya müraciətlər göndərməkdən insanlar da yorulmuşdu, elə rayonun rəhbərliyi də.

Gücümüz ona çatırdı ki, kənd və rayon sakinlərindən könüllü dəstələr yaradaq, gecə növbələri təşkil edək, yerli polisin köməyindən yararlanaq, müəyyən vasitələrlə silah əldə edək. Bütün bunlar təkcə maddi baxımdan yox, həm də fiziki və mənəvi baxımdan bizlərə çox baha başa gəlirdi.Lakin yorulmurduq, dincəlmirdik...İnadla, özü də hamılıqla, necə deyərlər elliklə kəndlərimizi, torpağımızı qoruyurduq!

Bizim üçün ən ağrılı məqam o idi ki, rayon rəhbəri kimi gördüyümüz iş Bakıda da qınaqla qarşılanır, barəmizdə sərt fikirlər söylənilir, hətta tənqid olunurduq. Amma gerçəkliyin içərisində olduğumuzdan və adamların bizi son ümid yeri kimi baxmasından çıxış edərək daha çox camaatımızı düşünürdük, onların səsinə səs verirdik. Səhəri onlarla birlikdə açır, gecəni onlarla birlikdə səngərlərdə, sərhəd kəndlərimizdə - Qacarda, Divanallarda, Qaradağlıda, Hoğada, Çəmənlidə, Yuxarı Veysəllidə və digər kəndlərimizdə qarşılayırdıq.Özü də sabaha, yəni bu günümüzə inana inana!!!Bilirdi ki, bizim də Qələbə sevincli günlərimiz gələcək! Şükürlər ki, o günlər artıq gəlib.

Bu gün səngərlərdə əsgərlərimizin göstərdiyi rəşadət, Ali Baş Komandanın sərt qərarları, ürəyimizi qürur hissilə döyündürür. İşğaldan azad edilən torpaqlarımızın hər qarışı bir müjdədir. Ürəklərimizi atlandıran müjdə! Lakin bu anımızda da yaddaşıma hakim kəsilmiş bir məqamı unuda bilmirəm.




Bu da 30 il öncəki kimi, bu gün də dünyanın, beynəlxalq təşkilatların bizim haqqımıza, ədalətimizə laqeydliyi, onların ikili standartlardan çıxış etməsidir.

Amma onu da mütləq qeyd etməliyəm ki, bütün gücüylə dünyaya həqiqətlərimizi bəyan edən Ali Baş Komandanımız demək olar ki, hər görüşündə, hər çıxışında, hər müraciətində az qala dünya dövlətlərinin başçılarına, səlahiyyət sahiblərinə, təşkilat rəhbərlərinə birbaşa torpaqlarımızın işğal, ermənilərin işğalçı olduğunu, işğal olunmuş ərazilərimizin terror yuvasına, narkoticarət bazasına çevrildiyini deyir. Təəssüf ki, bu gerçəklik yenə də öz ünvanına elə bil ki, gedib çatmır və yaxud da onlar bunu eşitmək istəmirlər.Amma nə olur olsun bizim SƏRKƏRDƏMİZ həqiqəti - dünyavi ƏDALƏTİ onlara sübut edir və bundan sonra da edəcək. Buna heç kimin, eləcə də Azərbaycan ictimaiyyətinin şübhəsi yoxdur!

**Mən iş təcrübəmdə ermənilərlə çox qarşılaşmışam. Onların xislətinə bələd olan bir şəxs kimi demək istəyirəm ki, bu gün Ali Baş Komandanımızın tutduğu yol, verdiyi qərar və tapşırıqlar mütləq həmin kar qulaqları, kor gözləri açacaq. Çünki Gəncənin dinc sakinlərini raket atəşinə tutan, Mingəçevirin, Tərtərin, Ağdamın, Ağcabədinin, Goranboyun, Daşkəsənin, Füzulinin, Beyləqanın, Tovuzun kəndlərini güllə-boran edən, top mərmiləri ilə göyə sovuran düşmən özünün layiq olduğu qiyməti ordumuz tərəfindən alacaq. Bizim sülhpərvərliyimiz heç də o demək deyil ki, şəhidlərimizin qanı yerdə qalacaq... Heç də o demək deyil ki, günahsız qocaların, qadınların, körpələrin naləsini, göz yaşını unudacağıq. Xeyr! Artıq səbrin sonu çatıb. Biz haqqımızı müdafiə edənlərin dəstəyi ilə gerçəyi hər kəsə çatdıracağıq. Biz ordumuzun gücü ilə Ali Baş Komandanımızın rəhbərliyi altında qələb çalacağıq, sərhədlərimizi bərpa edəcəyik, bayrağımızı göylərə yüksəldəcəyik. O gün uzaqda deyil. Mən o günü görürəm və o günə inanıram!..**

***Əbülfət MƏDƏTOĞLU,***
***Əməkdar jurnalist***


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ



Kamal Abdulla,
Xalq yazıçısı

# Müharibə və onun ədəbi-bədii əks-sədası

**Ədəbiyyatın bir çox ilhamverici qaynaqları ola bilər.**

Sevgi, gözəllik, hicran, xoşbəxtlik, firavanlıq, əzab, əziyyət Onlardan biri də müharibədir. Ən qədim zamanlardan üzü bu yana bütün savaşların, davaların, müharibələrin insan ürəyinə vurduğu yaralar nə zamansa cümlə, yaxud misra şəklində cücərir və bu zaman ölməz əsərlər yaranır. "Bu necə baş verir" sualına hələ ki heç kim cavab tapa bilməyib. Bu, bəlkə heç lazım da deyil. Əsas olan odur ki, qılıncların, nizələrin, tüfənglərin, avtomatların, indi isə topların ucunda bir tərəfdən ölüm gəlirsə, bir tərəfdən də ölümsüzlük və məhəbbət gəlir.

Bəs bütün bunlar nə zaman sözə çevriləcək?! Nə zaman Ana Vətənin ölməz igidlər himnini söz xiridarları silah hay-küyünün kakafoniyasından arındırıb sakit, təmkinli, ötkəm, sərrast sözə çevirəcəklər?! Bu qəhrəmanların unudulmuş, simvollaşmamış halda qalmaları mümkündürmü?! Heç vədə! Heç bir zaman!

"Kitabi-Dədə Qorqud" dastanında Təpəgöz tək idi və o, Oğuz elinin suyunun qabağını kəsib ona zülm edirdi. Müasir Təpəgözün ordusu var. Topu var, müasir silahı var. Uzaq-uzaq ellərdə hayanı, "dostu" var. Təpəgözlər dünyamızda çoxalıb. Böyük dahinin dedikləri düz çıxır. Səhra böyüməkdədir.

Azərbaycan əsgəri canından keçməyə hazırdır. Bu gün bütün Azərbaycan canından keçməyə hazırdır. Vətən torpağına mərmi dəyməməsi üçün hər kəs öz bədənini irəli verib o mərmiyə sinə gərir. Təki torpağa mərmi dəyməsin. Torpağın köksü yara görməsin. Bəs bu hər an qanımızla, canımızla taleyimizə yazılan qəhrəmanlıqlar bizim yaddaşımızda nə cür qorunmalı və üzə çıxmalıdır?! Zaman keçsə, bütün bunlar unudulmaz ki?! Öz ilkin təsirini itirməz ki?! Müharibə mövzusu bu gün niyə həyatımızda öz yerini tuta bilmir?!

Tez-tez soruşurlar, niyə bizdə hələ də müharibə mövzusunda mükəmməl əsər yazılmır, yaxud az yazılır?! Bu fikir hamını narahat edir. Mənim aləmimdə bunun bir səbəbi var.

İndi bu mövzunu işləmək heç də asan deyil. Əsgər - Murovdağda, sən burada. Əsgər - Qarabağda, sən burada. Amma hər şeyin öz vaxtı, öz vədəsi var.

Gərəkdir ki, sən özün də əsgərin ardınca Murovdağa çıxasan.

Şuşada Cıdır düzündə gəzişəsən, yalın ayağın şehə bata. İsa bulağının zümzüməsini dinləyəsən.

Ağdam bazarının uçqunları qarşısında durub nə zamansa "qədd tutmuş" canlı bazarda səslənən, indi isə bu "bazar" adlı məzarın içində gizlənmiş səsləri yerin dibindən çıxarasan, dinləyəsən.

Gərəkdir ki, Kəlbəcərin Ceyran bulağının dumanında itəsən, o duman sənin canına cənnət buludu kimi yerisin.

Gərəkdir ki, Tuğ kəndinə üz tutasan, kəndə deyəsən ki, sən niyə məni on illərlə aldatdın, mən axı sənə inanmışdım?!

Gərəkdir ki, Füzulidən ehtiyat etmədən, ayın-şayan baba evinə - Şuşa qalasına qalxasan.

Gərəkdir ki, Bərdədən üz tutub "Molla Nəsrəddin" yolu ilə, o qalın meşənin içi ilə Ağdərədən keçib Xankəndinə gələsən. Meşə də sənə minillik ağaclarının xışıltılı dərdini danışa.

Gərəkdir ki, Xudafərin körpüsünün bu tərəfində durub onun "pəncərələrini" dönə-dönə sayasan - Şimaldan Cənuba, Cənubdan Şimala. Sayasan və yorulmayasan.

Gərəkdir ki, Laçında Zınqrovlu çeşmədə üzünü yumayasan, üzünə su çırpasan.

Gərəkdir ki, Xankəndindən Xocalıya gedən yolda sağa Malbəyliyə dönəsən və o yoldan soruşasan: burdan keçən zavallı qəriblər nə oldu, onların günahı nəydi - onların ah-naləsini o yol unutmuş ola bilməz. Əlinlə, barmaqlarınla bu yollarda sənə rast gələn ağacların qabarını sığallayasan, çiçəklərə, qarşına çıxsa "Xarı bülbülə" "salam" deyəsən.

Gərəkdir ki, əsgərin ardınca gedib bu yurdun qərib, hürkmüş künc-bucağını, dağılmış və dağılmamış evlərini, tikililərini baxışlarınla əzizləyəsən, onun don vurmuş qəddini açasan. Bu zaman sən görəcəksən, yox, sən hiss edəcəksən: odur, baxdığın yerdən sənin baxışına cavab gəldi. Səni tanıdılar. Sənin üzünə gülümsədilər. Bu zaman sən eşidəcəksən. Yox, bu eşitdiyin söz - filan olmayacaq. Sən torpağın ruhunu eşidəcəksən. Bu ruhun səsi hıçqırıq dolu bir pıçıltı olacaq. Bax, o pıçıltını eşidəndən sonra sən yaza biləcəksən.

"Nə yazacaqsan" sualını vermə. Hər kəs o pıçıltıda özünü eşidəcək. Hər kəs o pıçıltını özü bildiyi kimi yazacaq. Kimi o pıçıltıda şeir eşidəcək, kimi hekayə, kimi roman, pyes Bax, bu olacaq bizim hər birimizin öz-özlüyündə və hamımızın birgə yazdığımız Qarabağ əsəri. Bax, bu olacaq müharibə ilə bağlı ürəyimizin qanı ilə yazılan şeirlər, hekayələr, romanlar, musiqi parçaları, rəsm əsərləri

**Belə olmasa, alınmaz.**

---

Kamal Öztürk



# Azərbaycana 10 əlaqə təklifi

***Anadolu Agentliyinin keçmiş baş direktoru Kamal Öztürk yazır.***

***1. Əlaqələrdə əsla müdafiə olunmamalı***

***2. Müdafiə xəttini Ankara və Bakıya qurmaq yerinə, hücum xəttini Vaşinqton və Parisə qurmaq lazımdı.***

***3. Azərbaycan Vaşinqton, Paris, London, Moskva və Tehranda səfirliklərin vasitəsilə əlaqə ofisləri qurmalı***

***4. Hər gün bu ofislərdən müntəzəm olaraq mətbuat konfransı etməli. Bu konfranslarda haqlı olduqlarını anlatmaqla kifayətlənməməli, ermənilərin necə işğalçı və separatçı olduğunu da dünyaya göstəməlidirlər. Yəni hücumda oynamalıdırlar.***

***5. Emənilərin Qarabağla heç bir əlaqəsi olmayan Gəncə və Bərdə şəhərlərinə etdikləri raket hücumlarında ölən sivilləri dünyaya tanıtmalı. Uşaqların öldüyü bu hücumlar səbəbilə dünyanı ayağa qaldırmalı.***

***6. Başda Xocalı qətliamı olmaqla ermənilərin səbəb olduğu sivil qətliamları işğal və talançı hərəkətlərini açdıqları ofislərdə faktlarla dünyaya tanıtmalıdırlar.***

***7. Türkiyəli və Azərbaycanlı sözçülər Türkün Türkə propaqandasından əl çəkib dünyaya açılmalı, haqlı mübarizəni anladacaq bir strategiya bəlli etməlidirlər.***

***8. Proaktiv bir əlaqə ilə başda ABŞ mediası olmaqla, hər gün müntəzəm olaraq sözçülər ekranlara çıxıb işğalçı Ermənistanı ittiham etməlidirlər.***

***9. Sosial mediada ən az beş dildə yayın edə biləcək, gerçək məlumatların yayınlanacağı sistem qurulmalı. Bu sistemdə əsla trol zehniyyətli tiplər işləməməlidir.***

***10. İlham Əliyevin xalq müraciətləri oturaraq deyil, ayaq üstdə edilməlidir. Müraciəti kağızdan yox, monitordan oxuyaraq etməli. Hər müraciəti qərarlı, nizamlı, sərt və haqlı olduqlarını güclü formadı vurğulayacaq şəkildə olmalıdır.***

***P.S. Sayın Öztürk, İlham Əliyev çıxışlarını sinədən edir.***

---

## *Polkovnik Elşad Əbilov: Azərbaycan Ordusunun uğurlu əməliyyatları davam edir*



Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin başçılığı altında zəfər yürüşümüz davam edir və uğurlarımız var.

Bunu işğaldan azad olunmuş Cəbrayıl rayonunda jurnalistlərə açıqlamasında polkovnik Elşad Əbilov deyib. O bildirib ki, uğurlarımız davam etməkdədir və son nəticədə Azərbaycan Ordusu işğalda olan bütün torpaqlarımızı azad edəcək:

"Ermənistan Silahlı Qüvvələri humanitar atəşkəsi pozmaqda davam edir, şəhər və kəndlərimiz dəfələrlə atəşə məruz qalıb, mülkü vətəndaşlarımız həlak olub: "Azərbaycan Ordusu humanitar atəşkəs qaydalarına ciddi riayət edir, Ermənistanın heç bir şəhər və kəndinə, mülki əhaslisinə atəş açmır.

Azərbaycan sentyabrın 27-də Ermənistan təxribatına cavab olaraq əks-hücum əməliyyatlarına başlayıb. Artıq bir neçə yaşayış məntəqəsi erməni işğalından azad edilib. Uğurlu əməliyyatlar davam edir. Azərbaycan Ordusunda yüksək nizam intizam və ruh yüksəkliyi var. Əsgər və zabitlərimiz torpaqları işğaldan azad etmək üçün canından, qanından keçməyə hazırdır. Bunu düşmən yaxşı bilir. Döyüşlər davam edir. Uğurlarımız var, belə də davam edəcək".

---



Əzizə İsmayılova

# Ölənlərin əvəzinə Qalanımız Vətən! - desin

*Ölənlərin əvəzinə*
*Qalanımız Vətən! - desin.*
*Vətən! - desin*
*Qəlbimizin hər duyğusu,*
*hər vurğusu*
*Vətən! - desin.*
*Fərqi yoxdur, harda olaq,*
*Zamanımız, məkanımız*
*Vətən! - desin!*

**Səngərdə olan əsgərim, bilirsən nə düşünürəm? Bilirəm ki, bütün günü döyüşmüsən. Bizim kimi sosial şəbəkədə olmağa, TV-yə baxmağa vaxtın olmayıb. Amma yəqin ki, Ali Baş Komandanın çıxışından xəbərdarsan. Çıxışa baxmasan da, tezisindən xəbərdarsan.**

**Bilirsən, ƏSGƏR, bu gün Ali Baş Komandanın müsahibə zamanı üzündəki mimikası, gözlərindəki təbəssümü, el dilində "açarıq sandığı, tökərik pambığı" deyib ürəkdən gülməsi və "bu gün səhər mənə verilən məlumata görə, Azərbaycan ordusu daha böyük bir qələbəyə imza atdı və lazım olan vaxtda açıqlama veriləcək" deməsində, "18 oktyabrda sizə elə bir tarixi tvitim olacaq ki..." oxudum mən...**

**O "daha böyük qələbə" sanki bugünkü tvitə aid deyildi. Əksinə, bugünkü tvit, 18 oktyabrın anonsuymuş kimi gəldi mənə...**

**Düşünürəm ki, görəsən sənin hansı böyük qəhrəmanlığının anonsu idi bu? Sürprizin nədir, ƏSGƏR?**

**Bilirsən, ƏSGƏR, bu gün həm də "Vətən mənə oğul desə nə dərdim..." deyən Məmməd Arazın 87-ci doğum günüdür. O, həm də deyirdi ki,**

*Bu gün gərək*
*Hər anımız Vətən! - desin!*
*Qılıncımız, qalxanımız*
*Vətən! - desin*

**Bax, ƏSGƏR, bu gün Məmməd Arazın ruhu da bir ayrı şaddır. Bir tərəfdən Vətən sənə OĞUL deyir, o biri tərəfdən, harda olmağımızdan asılı olmayaraq, zamanımız, məkanımız, hər anımız VƏTƏN deyir...**

**ƏSGƏR oğul, sənə olan inamından, güvənindən, sevgisindən, Azərbaycan VƏTƏN deyir.**

**Qarabağlı Azərbaycan üçün özünü qoru! Sən qalib gələcəksən!**



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# AZ TV-DƏ YENİ OYANIŞ

AzTV Azərbaycan televiziya məkanında zəngin keçmişi və böyük təcrübəsi olan bir kanaldır. Daha doğrusu, AzTV televiziya məkanında ana kanal kimi yadda qalıb. Başqa sözlə demiş olsaq, Azərbaycanda bu gün fəaliyyət göstərən özəl kanalların əksəriyyəti elə bu ana televiziya kanalından bəhrələnib, onların kadrlarından istifadə eləyib. Ancaq özəl kanallar nə qədər inkişaf etsə də, nə qədər təcrübə toplasa da, hələ heç biri AzTV-nin yerini verə bilməyib. Ən azından ona görə ki, bu gün AzTV-də dövlətçilik, maarifçilik və kütlənin savadlanması, vətənpərvərlik ruhunda formalaşması üçün çox böyük işlər görülür.

Bu televiziya kanalı Sovet dönəmində daha çox nüfuza və hörmətə malik idi. Çünki ölkədə yeganə televiziya kanalı idi və əhali də istər-istəməz bu kanala baxırdı. O vaxtlar ən populyar olan verilişlər bu gün də yaşlı nəslin yadından çıxmayıb. Xüsusən də "Səhər görüşləri", "Dalğa", "Hünər", "Birimiz və hamımız", "Yeni il gecələri" adlı proqramlar çox böyük tamaşaçı auditoriyası toplamışdı. Özü də bu verilişlərlə yanaşı, Az TV-də "Yeni ilin son gecəsi", "Səni axtarıram", "Ac həriflər", "Yaşıl eynəkli" adam və digər maraqlı televiziya tamaşaları ekrana çıxarılmışdı. Həmin verilişlərin bir çoxunu istedadlı rejissor Ramiz Həsənoğlu hazırlamışdı.

O vaxtlar televiziya şirkətinin sədri tanınmış şəxslər olsa da, amma əsas işi televiziya məkanını gözəl bilən Elşad Quliyev, Nahid Hacıyev kimi böyük və istedadlı televiziya mütəxəssisləri aparırdı. Və onlar da öz orijinal düşüncələri, ideyaları ilə yaradıcı kollektivə yeni mövzular verir, bunun əsasında da maraqlı verilişlər ekrana çıxarılırdı. Ancaq heç kimə sirr deyil ki, müəyyən dövrdən sonra AzTV əvvəlki nüfuzunu və tamaşaçısını itirdi. Bu da bir səbəbi şirkətə qeyri-peşəkar adamların şirkətə sədr təyin edilməsiydisə, digər səbəbi yeni özəl kanalların açılması, sosial şəbəkələrin mövcudluğu təbii ki, ana kanala öz mənfi təsirini göstərdi.

Ölkənin əsas ideoloji təbliğat vasitələrindən biri olan AzTV öz şöhrətini zaman-zaman əldən verməyə başladı. Təbii ki, bu, belə davam edə bilməzdi. Uzun müddət televiziya məkanında böyük təcrübə toplamış və AzTV-də nüfuz qazanmış, gənc, istedadlı jurnalist Rövşən Məmmədov AzTV-yə sədr təyin edildi. Aydındır ki, bu cür istedadlı, təcrübəli və enerjili bir gəncin yüksək vəzifəyə gətirilməsi ona göstərilən böyük etimadın nəticəsi idi. Və Rövşən Məmmədov da Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinin məzunudur. Belə bir kadra etimad göstərilməsi eyni zamanda digər istedadlı və gənc telejurnalistlərə elə "yaşıl işıq" yandırılması demək idi. Yeni sədrin gəlişi ilə AzTV-də çox unikal və möhtəşəm layihələr gerçəkləşdirildi. Bu layihələri ən çox da həyata keçirən Rövşən Məmmədovun güvəndiyi gənc jurnalistlərdir. Aydındır ki, onlara şərait yaratmaqla və rəngarəng yeni proqramlar efirə çıxarmaqla AzTV-nin əvvəlki hörmətini, nüfuzunu geri qaytarmaq mümkün idi. Qısa zaman kəsiyində bir-birindən maraqlı layihələrlə telejurnalistlər tamaşaçıların görüşünə gəldilər. Bu mənada AzTV-nin "Telesəhər", "Əsas məsələ", "Çıxışa doğru" proqramları sözün həqiqi mənasında tamaşaçıların diqqətini özünə çəkdi. Və "Çıxışa doğru" proqramının layihə rəhbəri Nailə Babayeva öz orijinal düşüncələri və yeni fikriylə tamaşaçıların yadında qaldı.

Eyni zamanda, səhər saat 7-dən 10-a qədər 3 saat canlı efirdə olan "Telesəhər" proqramı da milyonlarla tamaşaçını öz auditoriyasına cəlb etməyi bacardı.

AzTV-nin ən böyük layihəsi isə sentyabrın 27-dən başlanan və bu gün də davam edən Böyük Vətən Savaşında cəbhə xəttindən birbaşa reportajları, xəbərləri milyonlarla tamaşaçılara çatdırmasıdır. Və bu xəbərlər o qədər "isti-isti", o qədər operativ tamaşaçıya çatdırılır ki, tay tamaşaçı başqa yerdə o xəbəri axtarmağa ehtiyac duymur. Yarım saatdan, bir saatdan bir Füzulidən, Ağdamdan, Tərtərdən, Goranboydan və digər döyüş bölgələrindən olan xəbərləri televiziya müxbirləri mərmi və güllə altından Azərbaycan tamaşaçılarına çatdırır. O reportajları, o xəbərləri mərmilərin və güllələrin altında Azərbaycan tamaşaçısına çatdıran telejurnalistlər əsl qəhrəmandırlar. Savaşın ilk günlərindən Füzuli və Cəbrayıl bölgəsindən Vüsal Qaraca, Tərtədən Elnur Tofiq, Goranboydan Anar Şuşalı, eləcə də bu gün Füzulinin döyüş bölgəsindən canlı bağlantı yaradan Tural Qurbanov bu xalqın, bu millətin sevimlisidirlər. Bir neçə gün bundan əvvəl isə Tərtərdən reportaj hazırlayan AzTV-nin əməkdaşları ermənilərin mərmi atəşinə məruz qalıb. Sürücü yaralanıb, xidməti maşına isə qəlpələr dəyib. Ancaq buna baxmayaraq, AzTV-nin əməkdaşı Elnur Tofiq ekstremial şəraitdə belə, yəni onlar mərmi atəşinə tutularkən bu atəş altında reportajı hazırlayıb tamaşaçıya çatdırıb. Eşq olsun Azərbaycan Televiziyasının belə qəhrəman əməkdaşlarına! Allah onları qorusun!

Bu gün Azərbaycanın işğaldan azad olunmuş torpağı yolunda üç qüvvə çox böyük mücadilə aparır: biri Azərbaycan əsgəridi, biri həkimlərdi, biri də jurnalistlər! Həkimlərimizdən biri yaralını döyüş yerindən çıxararkən ağır yaralanıb və şəhid olub. Allah öz dərgahında saxlasın onu! Digər həkimlərimiz də döyüş bölgəsində sutkanın 24 saatı yatmır, yaralı əsgərlərimizin həyatını xilas edir. Əsgərlərimiz isə işğal altında olan torpaqlarımızı yağılardan qurtarır. Televiziya jurnalistləri birmənalı olaraq əsl mücadilə və savaş aparırlar. Bu ideoloji müharibədə, heç kimin xətrinə dəyməsin, AzTV liderlik edir. Çünki kanal sutkanın 24 saatını vətənpərvərlik mövzularına həsr edib. Yarım saatdan bir "AzTV Xəbər" efirə çıxır. On milyonluq əhaliyə şad xəbərlər çatdırır. Düzdür, bəzi özəl kanallar da cəbhə bölgəsindən canlı bağlantı və xəbərlər verirlər. Amma bunun sayını artırmaq lazımdır. Xüsusən SPACE kanalı bir balaca yuxudan oyanmalı və vətənpərvərlik mövzularına önəm verməlidir. Mikayıl Güləddinoğlunun verilişləri tay bəsdir. Nə qədər manısları təbliğ eləmək olar? Heç olmasa bir ay da Azərbaycan Ordusunu, Azərbaycan əsgərini, döyüşən oğulları gündəmə gətirmək lazımdır. İstedadlı rejissor hələ istedadlı jurnalist demək deyil. İstedadlı rejissor gözəl filmlər çəkə bilər, amma AzTV-nin yeni sədri Rövşən Məmmədov kimi inqilab eləyə bilməz. Rövşən Məmmədov jurnalistdir və jurnalist kadrları da vəzifəyə gətirib. Təbii ki, mənim bu fikrimlə razılaşmayan insanlar ola bilər. Amma gəlin onunla razılaşaq ki, bu gün sosial şəbəkələr fəaliyyət göstərmir, internet məhdudiyyətləri var, böyük Azərbaycan tamaşaçısı ən dəqiq və dürüst xəbərləri AzTV-dən alır. Buna heç kəsin sözü ola bilməz.

AzTV-nin bir üstünlüyü də ondan ibarətdir ki, yeni rəhbər vəzifəyə gələndən sonra uzun müddət bu kollektivdə işləmiş, təqaüdə çıxmış və hətta işdən çıxıb getmiş istedadlı, təcrübəli, məşhur telejurnalistlərin təcrübəsindən istifadə edilir. Bu isə o deməkdir ki, bu televiziya kanalı itirilmiş şöhrətini özünə qaytarır, Azərbaycan televiziya məkanında yeni oyanış yaranır. Dövlətə və xalqa xidməti özünün əsas missiyası sayır. Deməli, biz informasiya müharibəsində qalib gəlmək istəyiriksə, tək AzTV deyil, bütün özəl TV-lər daha operativ və dürüst işləməli, cəbhə xəttində baş verən hadisələri obyektiv şəkildə Azərbaycan tamaşaçısına çatdırmalıdırlar. Bu həm də düşmənin yaydığı dezinformasiyanın qarşısını almağa yönəlir. Bu gün böyük savaşdır. Və bu böyük savaşda əsgərlərimiz, həkimlərimiz kimi, Azərbaycan jurnalistləri də yeni bir tarix yazmalıdır. Yeni bir tarixi isə biz cəbhədəki xəbərlərimizlə, reportajlarımızla, müsahibələrimizlə gündəmə gətirməliyik. Ulu Yaradan o cəbhədə raketin, mərminin, güllənin altında xəbərlər və reportajlar verən Azərbaycan jurnalistlərini qorusun!

Musa Urud



## SAVAŞ DEYİR

Daha səbir qalmayıb
Dözümün dözümü yox
Bu şeytan düyününü
Kəsməsən çözümü yox.
Xalq həmişə haqlıdır
Xalq həmişə doğrudur.
Qaraya qara deyir
Ağ olana ağ deyir
Millət qalxıb ayağa
Dəniz kimi kükrəyir
Yurd deyir, torpaq deyir,
Şuşa, Qarabağ deyir.
Bağlı qapı dalında
Çox oyun oynadılar
Xalqımın dərdi ilə qolboyun oynadılar
Daha sizə ümid yox, daha sizə gərək yox,
Dəyirmi masalarda təbəssümü saxtalar.
Bir qəti söz, mərd qərar
Yüz gümanı noxtalar!
Ali Baş Komandanım əmr edir, savaş deyir
Otuz illik həsrətin səngərini aş deyir!
Şərəfli tarixini
Öz əlinlə yaz deyir.
Bayrağını Vətənin sərhəddində as deyir.
Bitdi boş danışıqlar
Susun artıq
Nə danışıq?
İndi daha top danışır, tank danışır.
Rəhbərimin qətiyyətli sözü ilə haqq danışır.
Susun, susun riyakarlar, quru-quru qrupbazlar,
Susun, indi xalq danışır.
Xalq deyir ki, haqq işidir mübarizəm,
Müqəddəsdir, haqq üçündür mənim davam!
Tamam yoxdir, davam-davam, davam, davam!
Kəlbəcərdə hikkəsindən parça-parça parçalanan
qayam deyir, daşım deyir
Ərim gəldi qayasında gözü yaşlı, üzü qanlı
Həsrət çəkən Şuşam deyir
Zəngilanda xan çinarı
Mişarlanan, baltalanan, talan olan meşəm deyir
Ruhu Vətən göylərində
Keşik çəkən Polad adlı paşam deyir.
Bu torpağın hər qarışı savaş deyir
Nər qayası, çınqıl daşı savaş deyir
Dul gəlinin qucağında
Məsum şəhid körpəsinin
gözdə yaşı savaş deyir!!
Savaş deyir Kərkicahan
Xocalıda tökülən qan.
Cəbrayılda, Fizulidə dalğanlanan
Ulu bayraq davam deyir
İrəlidə Zəngilan var, Qubadlı var
Qiyamətə qisas qalmaz -
Ağdam deyir.
Bu bir zəfər yürüşüdür,
Bir millətin haqq işidir.
Dayanmaq yox, durmaq olmaz,
Bunu bizə tora düşmüş Laçın deyir
Naxçıvanın qollarını açın deyir.
Tərtər deyir, Qarqar deyir, Xaçın deyir:
Azərbaycan əsgərinin mərd əliylə -
Qarabağda axan sular durulacaq
Xan yurdunda haqq divanı qurulacaq!
Sülh olacaq, biz istəyən sülh olacaq.
Haqqı deyən, şəri əyən sülh olacaq.
Qarabaqdan quldurları
Təmizləyən sülh olacaq!
Hələ isə
Bədəndə can savaş deyir,
Damarda qan savaş deyir.
Göydə Allah, yerdə Vətən savaş deyir
Dildə dua, əldə Quran savaş deyir.
Ali rəhbər, Baş Komandan savaş deyir.
Diz səngərdə, göz hədəfdə
Əl tətikdə
On milyonluq Azərbaycan savaş deyir!

# ERMƏNİ FİTNƏKARLIĞI, YAXUD ERMƏNİ VİRUSU



*Əvəz Mahmud Lələdağ*
*Şair, publisist, dramaturq*

**(əvvəli ötən sayımızda)**

**1920-ci ildə irəvan şəhər adlansa da, böyük olmayan qəsəbəni xatırladırdı. Zəngibasar tərəftən şəhərin girəcəyində dəmir yol vağzalı vardı. Şəhərlə vağzal arasında 3-4 km məsafədə bütün günü sərnişin daşıyan faytonçuların səsi eşidilirdi. O vaxt şəhər şərq libasını saxlayırdı. Şəhərdən Dəlmə və Sərdar bağlarına gedən yol Zəngi çayının üstündəki Şah Abbas körpüsündən keçirdi. Şəhərin məhəllələri belə adlanırdı: - Təpəbaşı, Hacı Novruzəli, Körpüqulağı, Dəmirli bulaq, Şirəçi, Müsəlmən çarşısı. Yadımdadır belə mahnı da oxuyurdular.**

*İrəvan çarşı bazar,*
*İçində qızlar gəzər.*

O ərazidə 2 kavansara, 2 hamam, 10 məscid - ŞahAbbas Məscidi, Göy Məscid, Körpüqulağı Məscidi, Kümbəzli Məscid, Zilxan Məscidi, Şah Məscidi, Hüseynəli Məscidi, Novruzəli Məscidi, Günlüklü Məscid, Təpəbaşı Məscidi əhaliyə xidmət edirdi.

### *Sadaladığım məhəllələrdə*

**azərbaycanlılar yaşayırdılar. O ərazida erməniyə məxsus bir dənə də olsun yeryurd adı yox idi. Həmin tarixi abidələri, məhəllələri ermənilər də bizim kimi adlandırırdılar. O zaman şəhərin kiçik bir küçəsinin qərb tərəfində erməni sənətkarları yaşayırdılar. Onlar evlərinin qabağında xırda dükanlar açıb xırdavat satır, at-qatır nallayırdılar".**

Həmin tarixi, memarlıq abidələrindən biri də yoxdur. Ümumiyyətlə, İrəvan xanlığında 1587 məscid, 23 mədrəsə, Zəngəzur, Uçkilsə və başqa bölgələrdə 830 məscid, 1934 mədrəsə, Ermənistan ərazisində 500-dən artiq qəbiristanlıq tamamilə dağıdılıb yerlə yeksan edilib, baratası qalmayıb.

Cənab ermənipərəstlər, zəhmət olmasa, adı çəkilən bölgələrə güzar edin, həmin tarixi, mədəni abidələri bircəciyinin xarabasını göstərin və deyin "Beynəlxalq birliyin bir üzvü kimi Ermənistan mədəni və tarixi irsi qorumağa borcludur. İkiüzlülük nəyə lazımdır.Bu ən qorxulu təhlükədir".

1918-ci ildə daşnak lideri Andranik Ozanyan Zəngəzurun azərbaycanlılar yaşayan 115 kəndini yerlə yeksan edib, azərbaycanlıya ağılasığmaz işgəncələr verib.

Ətlə dırnağın arasına iynə yeritmək, barmağı qapının arasında qoyub sıxmaq, ayaqları nallamaq, lüt kürəyə qaynar samovar şəlləmək, baldırın dərisini soyub yerinə duz səpib həmeyin keçilərə yalatdırmaq, gözün bəbəyini bıçaqla ovub çıxartmaq, başı arxadan kəsmək, sinələri qızğınla dağlamaq dünya təcrübəsində qeydə alınmayan işgəncə növləridir ki, bunları vəhşiləşmiş, insanlıqdan çıxmış ermənilər azərbaycanlıların üzərində tətbiq ediblər.

Zəngəzurda qırdıqları 7729 nəfərin 3257-si kişi, 2276 -si qadin, 2196 nəfəri isa kicik yaşlı uşaqlar olub.

### *1916-cı ildə aparılan*

əhalinin siyahıya alınmasına dair statistik məlumata nəzər salaq.

İrəvan qəzasında azərbaycanlıların sayı 370 min olduğu halda 1922-ci ildə bu rəqəm 70 minə endirilmişdir.

Zəngəzurda 119,5 min, Yeni Bəyazid qəzasında 50,7 min Sürməli qəzasında 45 min azərbaycanlı yaşayırdı. Göyçə, Vedibasar, Zəngibasar, Qaraqoyunlu, Ağbaba, Dərələyəz bölgələrində də azərbaycanlılar əksəriyyət təşkil edirdilər.

***Hörmətli ABŞ ermənipərəstləri, hazırda Azərbaycanda 30 min erməni yaşayır. Gəlin görək o boyda Ermənistanda dərmana bircə azərbaycanlı yaşayırmı? Özünüz nətica çıxarın! Ermənistanda azərbaycanlılara məxsus olan yer-yurd adları mərhələ-mərhələ ermənilərin zövqünə uyğun dəyişdirildi, ya da bir dəfəlik məhv edildi. Ümumiyyətlə, 1935-ci ildən başlayaraq 1989-cu ilə qədər 662 şəhər, qəsəbə, rayon, çay, dağ, daş adları dəyişdirilib erməni adı almışdı.***

| № | Keçmiş adı | İndiki adı | Dəyişdirildiyi tarix |
|---|---|---|---|
| 1 | Ağdü | Aqxitu | 1935,1989 |
| 2 | İşıqlıdağ | İşxandağ | 1960 |
| 3 | Bazarçay | Vorotançay | 1968 |
| 4 | Urud | Voratan | 1968 |
| 5 | Əlili | Salvar | 1935 |
| 6 | Məliklər | Spandaryan | 1930 |
| 7 | Saybalı | Sarnaqunk | 1946 |
| 8 | Məzrə | Bartsravan | 1946 |
| 9 | Ağkənd | Aşotovan | 1948 |
| 10 | Ərəvsə | Arevis | 1968 |
| 11 | Təzəkənd | Tasik | 1968 |
| 12 | Şam | Şamp | 1968 |
| 13 | Ərikli | Məhv edilib | 1918 |
| 14 | Şukar | « » | 1918 |
| 15 | Şukarlı | «_________» | 1918 |
| 16 | İrmis | «_________» | 1918 |
| 17 | Bəhluli | « » | 1918 |
| 18 | Dərəkənd | « » | 1918 |
| 19 | Qalaçıq | «_________» | 1918 |
| 20 | Hortuyüz | «_________» | 1918 |
| 21 | Zabazdır | « » | 1918 |
| 22 | Şükürbəyli | «_________» | 1918 |
| 23 | Kəndyeri | «_________» | 1918 |
| 24 | Çınqıllı | «_________» | 1918 |
| 25 | Qaraçılar | «_________» | 1918 |
| 26 | Anabat | «_________» | 1918 |
| 27 | Abdalanlı | « » | 1918 |

### *Hələ keçən əsrin 70-ci illərində*

ermənilərin belə separatçı hərəkətlərinə qarşı etirazımı, nifrətimi şeirlərimdə, poemalarımda bildirirdim.

***Mənim babam qoruyub,***
***İtirdiyim torpağı***
***Buna canlı şahiddir***
***Ağrı dağı, Şah dağı.***
***Mənim babam tikdiyi***
***Məscidi dağıtdınız,***
***Son illərin içində***

***Gör neçə dağ uddunuz.***
***Göyçə kimi mahal,***
***Eylədiniz Vardenis***
***İşıqlını İşxandağ***
***Zangibasarı Masis.***
***Xankəndini dəyişdin,***
***Ağdərəni, Gəncəni,***
***Ağbabanı dəyişdin.***
***Neçə eli-obanı,***
***Gülüstanıdəyişdin!***

Mənim doğulduğum, boyabaşa çatdığım Zəngəzur mahalının Sisiyan bölgəsində 38 yaşayış məntəqəsinin adları aşağıdakı kimi ya dəyişdirilmiş, ya da yerli-dibli yox edilmişdir.

### *Andronikin quldur dəstələri*

od vurub yandırıb, dağıdıb, yerlə yeksan edib azərbaycanlılar yaşayan bu kəndləri.

Ermənilər təkcə torpaqlarımızı işğal etməklə, tarixi və mədəni abidələrmizi, yer-yurd adlarmızı erməniləşdirməklə kifayətlənmirlər, onlar həm də musiqimizi-mədəniyyətmizi işğal edirlər, oğurlayırlar və özününküləşdirməyə çalışırlar.Özü də hiyləgərliklə, saxtakarlıqla. Aynur Hacıyevanın araşdırmalarına diqqət yetirəndə adamın ayağının altından yer qaçır. Nəqədər sırtıq, acgöz, hiyləgər, haramzadədir bu ermənilər.

R. Çaparidze yazır:

**-"Bu vaxtacan görmüşdük ki, adam adamin şey-şüyünü oğurlaya bilər, bütöv bir xalqın tarixini həyasızcasına oğurlayıb mənimsəmək isə təzə şeydir".**

1916-cı ildə Sedrak Maqalyan adli bir daşnak "Arşın mal alan"nı erməni dilinə tərcümə edir və Eriksyanın teatrında erməni dilində tamaşaya qoyur.

Tamaşanın uğur qazandığını görən Maqalyan sonralar afişalarda Üzeyir bəyin adını göstərmir.

Bu sahədə həyasızlaşan S.Maqalyan əsəri aparır Amerikaya və öz əsəri kimi təqdim edir. Lakin əsərin kim tərəfindən yazıldığını bilən Amerika ziyalılarından biri- professor Okorkov 1924-cü ildə Üzeyir bəyə Nyu-Yorkdan məktub yazır: "Sizin "Arşın mal alan" burda hər yerdə və hər yanda göstərilir. Sizin əsəriniz Amerikada olduqca böyük müvəffəqiyyətə malikdir. Hansısa bir Maqalyan bu operettanızı özününkü kimi qələmə verir və çox böyük məbləğdə pul qazanır. Maqalyan o qədər varlanmışdır ki, özünə böyük bir imarət tikdirmiş və onun frontonunda iri hərflərlə "Arşın mal alan" sözlərini yazdırmışdır".

Bax görürsünüz erməni saxtakarlığı hər yerdə özünüaçıq-aydın göstərir, Hələ bilmirik. Culfada hansı erməni abidəsi varmış, belə hay-küy salıblar. Bəlkə alban kilsələri də erməniləsdirirlər.

***Bu bədbəxt millət 1828-ci ildən Azərbaycana gəlmələrini tarixə salıblar, indi qədimdən danışırlar. 1978-ci ildə Xocavand rayonunun Marquşavan kəndində ucaltdıqları abidənin üstündə yazdıqları 1828-1978 gəlmələrinin 150 illiyini qeyd etmələri hər şeyi təsdiqləyir.***

1988-ci ildə noyabr-dekabr aylarında qışın oğlan çağında azərbaycanlılar yaşayan 22 rayondan 210 min nəfər əhalinin kütləvi surətdə deportasiya edilməsi, 217 nəfərin müxtəlif işgəncə ilə qətlə yetirilməsi 400-dan çox yük maşınının, 25 min ailənin əmlakının qarət olunması, 40897 azərbaycanlı ailəsinin öz dədə-baba yurdlarından, isti ocaqlarından, bərəkətli bucaqlarındanzorla qovulmaları hansı beynəlxalq qanunlara sığar?

***Düz 105 ildir ki, ermənilərin uydurma 1915-ci il erməni soyqırımı "Genosidi əllərində bayraq edib döymədikləri qapı qalmayıb. Bu uydurmanı inkar edən yüzlərcə müəllifin yazdıqlarını hesaba qoymurlar. Onların məntiqsiz çıxışları ağlabatan olmadığı üçün az qalıb bir əsr olsun heç kim tərəfindən təsdiqlənmir. Camaat erməni kimi kütbaş deyil ki, 1915-ci ildə cəmi 1300000 erməni olub.***

**Bəs necə oldu ki, qırğın vaxtı 1,5 yaxud 2 milyon erməni soyqırımına məruz qaldı? Axi fırıldaqçı ermənilər bəzən uydurmalarına nail olublar. Ona görə da bu gün da beynəlxalq təşkilatların qapısını döyürlər, uydurmaları həyata keçirmək istəyirlər. Ancaq onlar bilməlidirlər ki, "Yalan ayaq tutsa da, yeriyə bilməz".Dünya dövlətlərində terrorçu yetişdirən yeganə ölkə Ermənistandır.Müalicəsi müşəkil olan terror xəstəliyinə tutulan ancaq ermənilərdir.Terror erməni xəstəliyidir.**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Və NİDA!

## Bu, tarixin sübut etdiyi həqiqətdir

**Sizə təqdim edəcəyim fikirlərin adını oxuyanda yəqin ki, ilk öncə Azərbaycan Prezidentinin artıq dillər əzbəri olan məşhur "Qarabağ Azərbaycandır və Nida!" deyimini xatırlayacaqsınız. Əslində bu bir doğru yanaşmadı. Yəni mənim də fikrim elə o deyimə köklənib, ondan qaynaqlanıb. Sadəcə olaraq, bu köklənmə mənim bir vətəndaş, bir qarabağlı, torpağı işğal olunmuş insan kimi özümü toparlamağım deyil. Bu, mənim son günlər stolüstü kitabım olan "Və Nida!"dan qaynaqlanır. Çünki...**

Stolumun üstündəki kitabın müəllifi tələbə yoldaşımdı. Necə deyərlər, bir igid ömrünü yanaşı yaşamaqda davam edirik.

Və bir-birimizin də yazı dünyasından, söz coğrafiyasından xəbərdarıq. Bunu ona görə xüsusi vurğulayırma ki, indi barəsində düşüncələrimi sizinlə bölüşəcəyim kitabın "göydən düşmə" olmadığının "qeybdən" gəlmədiyini biləsiniz. Birmənalı şəkildə əmin olasınız ki, bu, özü-özündən qaynayan, özü öz səmtinə axan bir bulağın növbəti toplumudur. Yəni bu bulaq mənim tanıdığım, bildiyim 80-ci illərdən bu günə kimi axmaqdadır. Arzu Əsəd də həmin bulağın özüdü və hərdən ruhunun yerə meyl edən məqamında onun pıçıltılarını misralayır. Sonra da bir az xəsisliklə təqdim edir öncə dostlara, söz adamlarına, sonra oxucuya. Bax, elə bu kitabın da, özünün də bir araya gətirdiyi bütün pıçıltıları mən ayrı-ayrı məqamlarda, ayrı-ayrı ovqatlarda dinləmişəm. Amma heç vaxt ağlıma gəlməyib ki, bu, bütöv bir əsərin fraqmentləridi. O vaxta qədər ki, "Və nida!"nı stolumun üstündə gördüm.

Təbii ki, tələbə dostumu, kitabın müəllifini təbrik elədim - həm kitabın nəşrinə, həm o kitabın nəfisliyinə, həm də zamanında ortaya gətirilməsinə görə. Düşünə bilərsiniz ki, bu adi bir haldı. Lakin siz özünüz də kitabla tanış olsanız, bu adilikdə çox mənalar görəcəksiniz. Ən azından mənim özüm üçün müəyyənləşdirdiyim məqamları.

Onlardan birisi müəllifin hardasa bəsirətidi. Elə bil o, röyalar, xəyallar dünyasında yerlə, göylə əlləşir... bizim milli kimliyimizin qatlarına enir... hardan hara yol gəldiyimizi nöqtə-vergülünə qədər sadə, amma kəskin məntiqlə ortaya qoyur. Və yazır ki:

*Sənmi nöqtə qoyursan taleyin yazısına,*
*Sənmi son verəcəksən tarixin gedişinə?*
*Ey çırpınan tükəniş, ey köpükdən fırtına,*
*Varmısan, hazırmısan, əsrin titrəyişinə?*

Bu parça xalqımızın bu gün yaşadığı, sevincini artıq özünün faciəsinə çevirmiş Paşinyana ünvanlanıb. Arzu Əsəd ondan soruşur. Özü də yaxasından tutub soruşur ki:

- Sənmi nöqtə qoyursan taleyin yazısına!

Təbii ki, kiminsə başqasının - özü də dövlət olaraq, millət olaraq taleyinə nöqtə qoyması bu, absurd bir düşüncədi, həm də bunu dilə gətirməyin özü şizofreniyanın göstəricisidir. Ona görə də kəskin suallarına ardınca:

*Bir amal, bir yüksəliş, bir mənadır Qarabağ,*
*Sənin nöqtə varlığın onu bitirə bilməz!*
*Ruhunu yaxıb-saran bir sevdadır Qarabağ,*
*Azərbaycan kül olar onu itirə bilməz!*

Bax, burda artıq Arzu Əsəd bütöv Azərbaycanı Qarabağ kimi təqdim edir, Qarabağı bütöv Azərbaycan kimi görür. Və bu bütövlüyün içərisində Qarabağa nöqtə qoymaq istəyənin özünün nöqtə boyda olduğunu onun üzünə çırpır. Mən də, elə siz də bunun ardınca müəllifin hansı duyğunu ifadə edəcəyini artıq hiss edirsiniz. Çünki əvvəldə dediyim o bəsirət, o xəyallar, o röyalar artıq yeriməyə, ayaq tutmağa, gerçəkləşməyə başlayır. Necə deyərlər, çin olur. Və:

*Milyonlar ayaqdadır, milyonlar hazır durub,*
*Milyonlar qurban gedir o günün gəlməsinə.*
*Azərbaycan - çırpınan əlli milyon nidadır,*
*Ali Baş Komandanın bir "Hücum" kəlməsinə!*

Hə, bax, mən bunu deyirdim. Elə siz də bunu düşünürdünüz. Deməli, Arzu Əsəd də öz şair fəhmilə bu günü - 27 sentyabrı görürmüş. Ona görə də içi, ruhu ona rahatlıq vermirmiş. O bulağın nuru misralara çevrilirmiş, məhz o "Hücum"a görə... Bizim yaşamağa başladığımız sevincə, nidaya görə!..

Mən kitabı oxuduqca özüm üçün işarələdiyim ikinci məqam məhz Arzu Əsədin fəhmidi. O fəhmlə söylədiyim, işarə etdiyim 27 sentyabrı görübdü. Onu içində nidaya çeviribdi. Özü də həm fəhmlə, həm də fəhmdən öncəki bəsirətlə. Çin olan yuxular, röyalar onun gözlərini açıb. Adi bir vətəndaş, insan kimi yox, bir şair kimi, bir Haqqa yaxın bəndə kimi açılan göz - bəsirətdən çıxmaq fəhmin qanadlanmasına, özünü ruhlarımızın dolaşdığı ünvana üz tutmasına səbəb olub və bəlkə də təkan verib desəm, daha doğru olar. Ona görə ki, 27 sentyabrdan öncə iki məqam var. Bunlardan biri Lələtəpə zəferidi. İkincisi, Tovuz dərsi!

Yəqin siz də xatırlayırsınız, 2016-cı ilin aprelində ordumuz Ali Baş Komandanın Hücum Əmrilə bayrağımızı Lələtəpədə dalğalandırdı. O anda Arzu Əsəd özünün "Mən səni sındırdım Lələtəpədə" şeiri yazdı. Bu şeirin ilk dinləyicisi, ilk oxucusu kimi böyük maraqla oxudum və etiraf edim ki, onda da Arzunun fəhminin, bəsirətinin şahidi oldum. Çünki tələbə dostum o şeirində təkcə döyüş səlnaməmizi yox, tariximizi, kimliyimizi, o döyüşən oğulların soykökünü poetik duyumla rəsm kimi işləmişdi. Sanki qələmin bir ucu da fırça idi - həm yazmışdı, həm də göstərmişdi. Demişdi ki:

*Lələtəpə, Lələtəpə,*
*Hələ ilkdir, hələ təpə...*
*Vulkanları püskürəcək,*
*Ucalacaq, dağ olacaq!*

Deməli, mən yanılmamışam. Həmin o bəsirət də, o fəhm də özünü Tovuz dərsində göstrədi. Düşmən bu ikinci zərbədən hiss etdi ki, başını daşa vurur və bu daş onun başını partladacaqdı. Necə ki, 27 sentyabrda həmin daş tuşlandığı başa dəydi. Bunun ifadəsini isə Arzu Əsəd özünün "Azərbaycanlılar"ında yazdı. Dedi ki:

***Dünya dönər, dəyişər,***
***siz haqq ilə birsiniz,***
***Tarixin qatlarında***
***açılmamış sirsiniz.***
***Yer üzünə səpilən***
***bərəkət, xeyirsiniz,***
***Azərbaycanlılar,***
***azərbaycanlılar.***

Bunu oxucuya demək, dünyaya çatdırmaq haqqını Arzu Əsəd həm tariximiz-




dən, həm də bu günümüzdən əldə edib, ordan götürüb. Yəni "Ölkəm əmin əllərdədir" şeirini yazanda artıq Arzu Əsəd azərbaycanlıların kimliyini hayqıraraq dünyaya çatdırmışdı. Bunun üçün onun söykənəcəyi nöqtə var idi. O həmin nöqtəni tapmışdı, görmüşdü və ona inanmışdı. İnam da həmişə qalibiyyətin açarı olur.

Deməli, ölkəmizin əmin əllərdə olmağı bizim azərbaycanlı kimi tanınmağımızın həm qarantıdı, həm də açarıdı. Bax, bu yerdə mənim yadıma Arzunun kitabı ilə bağlı özüm üçün müəyyənləşdirdiyim 3-cü məqam düşür. O da duyumdu, intuisiyadı.

Yəni Arzu bəsirətiylə, fəhmiylə paralel olaraq, həm də intuisiyası ilə oxucunu gerçəklə üz-üzə qoyur. Göstərir ki:

***Allah yaradan dünyadan***
***daha gözəl bir dünya yox,***
***Vətən, millət sevgisindən,***
***daha böyük bir məna yox.***
***O nağıllar, o sehrlər,***
***Şərin köhnə havasıdır,***
***Yüksək sözlər bəhanədir,***
***dava yorğan davasıdır.***
***Min ayının min oyunu,***
***bu torpağın başındadır.***
***Hiylələrin ilki, sonu,***
***bu torpağın başındadır.***
***Müharibə aşkardadır,***
***müharibə gizlindədir -***
***Həqiqətin çölündədir,***
***yalanların içindədir.***

Hə, indi yəqin ki, razılaşdınız yenə mənimlə. Şərik oldunuz ki, bütün dediyim məqamlar xeyirlə şərin, gizlinlə aşkarın pərdə önü və pərdə arxası savaşlarının bir qələmlə ifadə olunmasına gəlib çıxıbdı... bir şairin bəsirətiylə, fəhmiylə, duyumuyla şeirləşibdi. Bu da məhz o dediyim tarix dərslərindən keçib gələn yolumuzun özündə ifadə olunan həyatımızdı.

Tam cəsarətlə deyə bilərəm ki, biz keçdiyimiz yolu bizdən daha mükəmməl görən, daha içdən araşdıran Arzu Əsəd özünün məhz intuisiyası ilə yazıb ki, "Ver, ver bizə zəfəri"! Bunu o vaxt yazıb ki, biz Lələtəpədə bayraq qaldırmışdıq. Bax, onun şair duyumu, şair fəhmi onda anlamışdı ki, qarşıda 27 sentyabr var. Ona görə də əmin əllərin sahibi olan Ali Baş Komandana üzünü tutub bir şair coşğusu ilə yazmışdı:

***Yaşın o yaşa çatıb,***
***damarlarında o qan -***
***Dönüb keçən yüz ilin***
***yetmişlərinə baxsan.***
***Bundan sonra sən böyük,***
***tarix yaradacaqsan!***
***QƏLƏBƏ - bu möhtəşəm***
***tarixin şah əsəri!***
***Ver, ver bizə zəfəri.***
***İdrakın ən dərini,***
***sözlərin ən sadəsi***
***Haqq və xalq - bar varlığın***
***və ruhun ifadəsi!***
***Önündə haqq, arxanda***
***bu xalqın iradəsi,***
***Kim durduracaq səni,***
***Haqq yolunda irəli!***
***Ver, ver bizə zəfəri!.***

Tam səmimi deyəcəm. Mən Arzu Əsədin bu kitabını oxuyanda yaşadıqlarımı bir yazıda, bir söhbətdə oxucu olaraq şərh etmək, çözmək gücündə deyiləm. Çünki burdakı hər fikrin dərindən-dərin qatları var. O qatların zirvəsində BAYRAĞIMIZ və QƏLƏBƏMİZ durur. Bunu Arzu Əsəd də yazıb. O da üzünü hamımıza tutub beyib ki:

***Gəl, şəhid ruhları çağırır,***
***sonunda mən də***
***bir kök dolusu bağırım:***
***Qələbə! Qələbə!***

Bəli, "Və nida!" kitabının sonunda akademik Nizami Cəfərovun yazısı, bir məqaləsi nöqtə qoyub. Mən bu məqaləni də oxudum. Təbii ki, bilmədiklərimi, duymadıqlarımı özüm üçün aydınlaşdırmaq üçün.

Oxuyub bitirəndən sonra mənə elə gəldi ki, içimdən keçən fikirlərin yığcam ifadəsini hörmətli akademikimiz Nizami müəllim çox mükəmməl ifadə edib:

**- Arzu Əsədin "Və nida!" kitabı içində yaşadığımız tarixin hiss-həyəcanının, bu tarixi yaradan Xalq və onun Liderinin sarsılmaz birliyinin poetik ifadəsi, torpaqlarımızın azadlığı və müstəqil dövlətimizin inkişafı naminə müasir Azərbaycan poeziyasının - Azərbaycan ruhunun Azərbaycan varlığına səslənişidir!**

***Bəli, bu, həqiqətən belədir. Bu, Ali Baş Komandanın dünyaya bəyan etdiyi "Qarabağ Azərbaycandı və Nida!"nın şeirə köçürülmüş özüdür!***

# MƏMMƏD ARAZ YARADICILIĞINDA ÇAĞLAYAN "ARAZ"

**Xalq şairi, Əməkdar İncəsənət xadimi, Dövlət Mükafatı Laureatı, "İstiqlal" ordenli Məmməd Arazın çoxşaxəli, dərin mövzulu fəlsəfi irsi hələ sağlığında klassik dəyər qazanmışdır. Ümumxalq məhəbbəti qazanan, gündəmdən düşməyən, yaddaşlardan silinməyən Məmməd Araz yaradıcılığına, onun unudulmaz poeziyasının işığına minlərlə oxucu yığışır və hər birinin qəlbinə bu nurdan pay düşür, qəlbindəki qığılcımı alovlandırır.**

Çağdaş Azərbaycan ədəbiyyatının və milli şeirimizin ən kamil və ötkəm, təsirli və dəyərli poetik nümunələrini yaradan, lakonik və yığcam ədəbi söz ustadı Məmməd Arazın irsində Araz mövzusunun ecazkar bir bədii tutumu var. Bu mövzu şairin bütün yaradıcılığında izlənilir və qırmızı xətt kimi keçir. Çünki tədqiq etdiyimiz məqam onun üçün çox həssas bir mövzudur. Təsadüfi deyil ki, şair Araz mövzusunda şeirlər silsiləsi yaratmışdır. Bunlardan "Araz dili", "Yenə Arazı gördüm...", "Bu gecə yuxumda Arazı gördüm", "Mən Araz şairiyəm", "Arazın işıqları", "Araz üstə çinar gördüm", "Araz yadıma düşüb", "Arazın nəğməsi" şeirləri və "Araz axır" poeması mahiyyət etibarı ilə eyni mərama, məntiqə xidmət edir və bütövlükdə ümummilli məsələyə köklənib. Bu da M.Araz irsinin səciyyəvi xüsusiyyəti, fərdi üslubunun məziyyətlərindən biridir.

### *Azərbaycan nəzm və nəsr ədəbiyyatının*

***bir çox nümayəndələri Araz çayına xitab edərək şeirini onun vəsfinə yönəltmişlər. Bəzən bu çayı bir xalqı ikiyə bölən qəddar bir sədd kimi qiymətləndirənlər, bəzənsə vahid Azərbaycan probleminin baisi, səbəbkarı, qınaq yeri kimi də müraciət edənlər az olmayıb. Amma Məmməd Araz yaradıcılığında Araz nə zavallı, nə də günahkardır, Araz hər zaman məğrurluq rəmzidir. Onun şeirlərində keçən Arazla bağlı nümunələrdəki sətiraltı mənalar da şairin Araz təxəllüsü ilə səsləşən obrazıdır. Onun həyatdakı canlı prototipi elə Araz çayının özüdür. Şairin bütün yaradıcılığı məğrurluq, yenilməzlik, vüqarlılıq üstündə qurulub. Haqsızlığa tab gətirməyən, ədalətsizliyə boyun əyməyən dağ əzəmətli, dağ vüqarlı ədəbiyyat nümunəsi dayanır qarşımızda. Həmişə əbədiyaşar şairin yaradıcılığını oxuyuruq, əzbərləyirik, təkrarlayırıq və yenə də düşünürük. Məmməd Araz şeriyyəti oxucusunu valeh etməklə yanaşı hər zaman düşündürür. Aforistik deyimləri, müdrik kəlamları, filosofsayağı düşüncələri oxucusunu əfsunlamaqla yanaşı, eyni zamanda düşünməyə və dərs çıxarmağa sövq edir. Məmməd Araz yaradıcılığı bütövlükdə bir tarixdir. Öz millətinin, vətəninin yazılmayan salnaməsi, tarix dərsidir. Bəzən qəhrəmanlıq tarixi, bəzən mərdlik nümunəsi, bəzənsə içacıdan, ürək parçalayan taleyidir. Şairə görə Araz Azərbaycan həqiqətlərinin qan yaddaşıdır:***

***Seyr elə Arazı bir yaz səhəri,***
***Bir tarix dil açar onun səsində.***

Araz - şair Məmməd İbrahimovun sadəcə təxəllüsü deyil, onun qəlbindəki ən mərhəm duyğuları, ən gizli sirlərin sadiq dostu, dərddaşı və ömürnaməsidir. O, Arazdan sadəcə yazmır, o, Araz cayının axışına, füsunkarlığına sadəcə şeirlər həsr edərək onu vəsf etmir, bir xalqın taleyinin, tarixinin, keçmişinin canlı şahidi kimi müraciət edir. Yazıçı-publisist Aqil Abbas Məmməd Arazın təxəllüsünün niyə Arazdan gəldiyini və onun Araz sevgisinin ilahiliyini səciyyələndirərkən yazır: ***"Şairin ən böyük dərdi, şairin ən böyük ağrısı Araz dərdi, Araz ağrısıdır. O Araz ki, Azərbaycanı iki yerə bölüb. Yüz illərdir bu xalqın bir arzusu var, o da birləşmək arzusu! Şair də bu arzu ilə yaşayır və elə məhz ona görə də özünə "Araz" təxəllüsü götürüb".***

Hər bir Azərbaycan vətəndaşı, ələlxüsus da naxçıvanlı Araz çayını dəfələrlə görüb. Bir çoxları üçün sadəcə su axınından ibarət olan bu çay şair Məmməd Araz üçün ilham mənbəyi olmaqla yanaşı bir qibləgahdır. Onun yaradıcılığını mütaliə etdiyimiz zaman görürük ki, o, müraciət etdiyi bütün mövzuların bədii portretini yaradır, amma Araz mövzusu Məmməd Araz yaradıcılığının sütununu təşkil edir. Ustad şair Arazdan nə zaman yazırsa yazsın, bu mövzu həmin əsərin süjetini təşkil edir.

Bütövlükdə, Araz cayı şairin yardıcılığında bir vəsf obyekti, təbiət lövhəsi deyil, Araz bəzən baş qəhrəmandır, bəzən canlı bir obrazdır, bəzənsə sirdaş, dərddaş, xitab yeridir.

M.Araz Arazı xalqımızın mübarizə, döyüş rəmzi kimi simvolizə edir.

O, sanki Arazla canlı insan kimi dərdləşir, bəzən insanlara deyə bilmədiyini Araza deyir, asta-asta, həzin-həzin sızlayır, bəzən hayqırır:

*Mən neçə yol danışmışam Arazla...*
*Hansı dildə danışmışam? -*
*Bilmirəm!*

Bu misralar şairin yaddaşlarda unudulmaz izlər buraxan "Araz dili" adlı şeirindən götürülüb. M.Arazın Araza yazdığı şeirlərindən ən təsirlisi "Araz dili" adlı şeiridir ki, həm söz, həm poetik tutumu, həm də fikrin bədii ifadəsinə görə daha güclüdür. Burada Azərbaycan tarixi ilə xalqın yaşamının dünəni və bu günü məharətlə, ən seçkin sözlərlə və bəzən də təbii ümumxalq dilindən gələn diləyatım ifadələrlə əks edilməkdədir:

*Yenə dolub daş-kəsəklə xurcunun*
*Bir daş atıb, gəl oyatma min daşı*

***

*"Gəl, haqq sözü bölüşdürək səninlə"*
*Daşdı - daşdır,*
*Susdu - susur, üzü bir.*

***

*Araz dili nə qılıncdı, nə hədə,*
*Sənin olmaz bizim olan: zərrə də.*

- dediyi bu misralarda Araz çayı ilə ikiyə bölünmüş torpağın eyhamını böyük ustalıqla vurur.



*Araz dili: ürək dili, göz dili,*
*Torpaq dili, hava dili, göy dili*
*Mən neçə yol danışmışam Arazla...*

Bu şeir və həmçinin Araz mövzusu M.Arazın fərdi duyğularının poetik təzahürüdür. Onun bütün yaradıcılığında olduğu kimi bu şerində də fəlsəfi dərinlik, hikmətli düşüncə, dərin məntiq hakimdir. Çünki Məmməd Araz Araz çayına adi bir şair gözü ilə baxıb onu hər hansısa gözəlliyini vəsf etmir, poetik tablo yaratmır. Onun üçün Araz cənub mövzusunda həsrətin və dərdin simvoludur. M.Arazın bəhs etdiyimiz mövzudakı şeirlərindən şairin ürəyinə saplanan Araz dərdinin sızısı duyulur.

### *Vətəndaş şair Məmməd Araz*

***hər bir təbiət lövhəsini poetik şəkildə tərənnüm etməyi bacaran təbiət şairidir desələr də, biz heç də o fikirdə deyilik. M.Araz hər bir təbiət lövhəsinə bədii don biçməkdən çox, onu fəlsəfiləşdirən şairdir. Biz "Araz şairi" Məmməd Arazın yaradıcılığında Arazın bədii təsvirinə, poetik tablosuna rast gəlmirik. Buna görə də Araz onun üçün vəsf obyekti olmaqdan çox xitab yeridir. Hər bir sənətkarın həyata baxışı onun yaradıcılığında öz əksini tapır. Akademik İsa Həbibbəyli bu barədə yazır: "Öz yaradıcılığının əsas qəhrəmanı, aparıcı siması olan, düşündüklərini, yaşadıqlarını yazan Məmməd Arazın əsərləri həqiqi bir insan ömrünün mənalı və pozulmaz səhifələridir. Bir çox istedadlı şair kimi Məmməd Arazın əsərləri də onun ibrətamiz həyat dastanı, mənalı ömürnaməsidir".***

### *Alimlərin, tənqidçi-ədəbiyyatşünasların*

və şairin qələm dostlarının fikrincə, daş mövzusu özünü şeirin "daş əsgəri" hesab edən Məmməd Arazın yaradıcılığında bütövlük, torpağa bağlılıq, bərklik, dözümlülük, vətəndaşlıq rəmzi kimi ifadə olunur. Fikrimizcə, Araz mövzusu isə şairin yaradıcılığının ana xəttini təşkil etməklə yanaşı onun əsas qayəsinə, məramnaməsinə çevrilir. Araz mövzusu həm də şair üçün vasitədir. O, fərqli mətləbləri qələmə almağa, deyilməmiş fikirləri ifadə etməyə xidmət edir. Məmməd Araz bəzən müəyyən nüansları olduğu kimi yox, olmalı olduğu kimi verir. Bu da şairin individual xarakterindən, fərdi özünəməxsusluq keyfiyyətlərindən irəli gəlir.

***Oxucu şair Məmməd Arazı xəyalında canlandırarkən onu əlində lələkli qələm masa arxasında bir vərəqə misralar yazarkən, qafiyə uyğunsuz olanda onu qaralayan və başqa qafiyə axtaran bir şair kimi yox, hər zaman Araz çayının sahilində, tənha bir yerdə için-için danışırkən və bədahətən gələn sözlər misraya dönüşən bir mənzərə ilə canlandırır. Budur şair Məmməd Arazın fərqi.***

Onun bədii duyğuları da Araz çayı kimi durmadan axır. Onun da yaradıcılığı Araz çayı kimi başıbəlalıdır. Bir təxəllüs şair taleyini özündə bu qədərmi ehtiva edər, özü ilə bütünləşdirə bilər? Bir şair təxəllüsünə bu qədərmi bənzəyər, bir təxəllüs sahibi ilə bu qədərmi bütünləşər?! Oxucu bu sintezin konkret olaraq bədii lövhələrini "Yenə Arazı gördüm..." şeirində görür. Şair Araz çayının sahilini dodağına, ləpələrini dilinə, sahil boyu uzanan çinarlarını yazan əlinə bənzədir. Ləpədöyən bərk qayaların həssaslığını qəlbi kimi həzin, hər bir pıçıltını hiss edən hissiyyatı ilə qarşılaşdırır. Coğrafi məkan olan Arazı görən hər kəs bilir ki, bu çayın suyu hərdən bir cür olur; bəzən dupduru, bəzənsə çox bulanıq, bəzən apaydın, bəzən çox tutqun. Şair dəyişən əhvalını, rəngbərəngə çalan şair ruhunu, bədii ovqatını bu çayın axar-baxarı ilə müqayisə edir və "Tutqundur qaşqabağın, Bu qaşqabağım kimi" deyərək bu misralarda metaforanın ən uğurlu nümunələrini təqdim edir. Bütövlükdə "Yenə Arazı gördüm..." şeirini M.Araz dünyasında Araz təxəllüsünün yozumu, açıqlaması və ya sirri kimi dəyərləndirmək olar. Bu şeir nə qədər şairin ülvi, incə və səmimi hisslərindən yoğrulmuşdursa da, bir o qədər də sirli dünyasından ortaya çıxır:

*Mən sənə bir şair,*
*Sən mənə Araz de.*
*Elə bil nə mənsiz*
*Sən Araz,*
*Nə sənsiz mən şair olmazdım...*

Bu misralarda şairin şairliyinin əsas ilham mənbəyinin Araz çayı olduğunu açıq-aydın görürük. Bu məqama bağlı olaraq akademik İsa Həbibbəyli yazır: "Azərbaycan ədəbiyyatında çox məsuliyyətli olan Araz təxəllüsünü daşımaq haqqını qazanmaq Məmməd Araza nəsib olmuşdur". Azərbaycan ədəbiyyatında görkəmli şairlərin bir çoxu təxəllüslərini məşhurlaşdırmışlar. Amma hər bir şair haqqında qətiyyətlə demək olmaz ki, təxəllüs onun bədii yaradıcılığı ilə səsləşir, müvazi şəkildə işlənir və ya onun bədii dünyasını, poetik aləmini aça bilir. Və ya ədib şeriyyətini təxəllüsünə həsr edə, uğurlu nümunələr yarada bilsin, həmçinin Azərbaycan ədəbiyyatında layiqli yer tutsun. Şair o qədər Araz vurğundur, Arzadan yazmaq onun qələminin əsas ilham mənbəyidir ki, Arazdan çox yazmaqdan bəzən ehtiyatlanır və bunu da qələmi ilə dilə gətirir:

***Yenə də söz açsam,***
***Mən səndən danışsam,***
***Qorxuram, qorxuram tənqidçi***
***Tənqidçi dostlarım***
***Şairi döyərlər.***
***"yenə də Arazdan, Arazdan!"***
***- deyərlər.***

"Haqqın var Məmməd Araz, Haqqın var yaşamağa" şeirində də özünə xitabən "Sən məqamı gələndə Araza bənd olansan" misrasında da Araz mövzusuna heç vaxt məqamsız toxunmadığını, yeri gəlməyəndə müraciət etmədiyini, movzusu "tükənəndə" əl atmadığını, yalnız məqamında Araza bənd olduğunu ifadə edir:

*Hər sözün işığında göyə bülənd olansan,*
*Sən arzuya bələdçi, şərə kəmənd olansan;*
*Haqqın var Məmməd Araz,*
*Haqqın var yaşamağa.*

Qələmilə içini boşaldan, ağrı-acısını kağıza tökən şair hər nədən yazırsa-yazsın, əsas mövzusundan yazmamaqdansa, ürəyinə oxların batmasını, nizələnməsini diləyir:

*Mənə şərəflidir belə ölümlər:*
*Qoy batsın sinəmə, batsın min nizə,*
*Arazdan, Cənubdan yazmağım əgər*
*Dünyada ən böyük cinayət isə.*

**(ardı növbəti sayımızda)**

**ZÜLFİYYƏ İSMAYIL**
**AMEA Naxçıvan Bölməsi**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

# MÜHACİRƏT MƏTBUATIMIZIN MÜQTƏDİR MÜCAHİDİ



*Asif Rüstəmli*
*Filologiya elmləri doktoru, professor*

**(əvvəli ötən sayımızda)**

**Abid Tahirlinin bu monoqrafiyası Azərbaycan mühacirət mətbuatı tarixində ilk irihəcmli, daha geniş arealı əhatə edən, yeni elmi məlumatlarla zəngin, dəyərli və sanballı araşdırmadır. Bəzən ayrı-ayrı qəzet və jurnallara həsr olunmuş məqalələr janr etibarilə müstəqil əsər təsiri bağışlasa da "Azərbaycan mühacirət mətbuatı" ikicildliyi mövzu, məzmun və mahiyyət baxımından bir-biri ilə içdən bağlanaraq elmi sistem məcrasında monoqrafiyanın sərt tələblərini özündə ehtiva edir.**

"Azərbaycan mühacirət mətbuatı"nın birinci hissəsində müəllif 1923-cü ildə İstanbulda fəaliyyətə başlayan "Yeni Qafqasiya" jurnalının ideoloji istiqamətinə, mövzularına, yazarlarına xüsusi toxunmuş, SSRİ Dövlət Birləşmiş Siyasi İdarəsinin rəis köməkçisi Petrosyanın bu dərgi ilə bağlı ciddi təlaş keçirməsi, Azərbaycan mühacirlərinin ən populyar mətbuat orqanını qapamaq üçün Türkiyə rəsmilərinə müraciətlərini qeyd etmişdir. Sabiq SSRİ rəhbərliyinin Mustafa Kamal Atatürk hökumətinə israrlı və təkidli tələblərindən sonra "Yeni Qafqasiya" jurnalı 1927-ci ilin sonunda, dördillik səmərəli tarixi fəaliyyətdən sonra nəşrini dayandırmaq məcburiyyətində qalmışdır.

### *"Azərbaycan mühacirət mətbuatı"*

monoqrafiyasının I cildində müəllif "Azərbaycan" (Paris), "Azərbaycan" (Ankara), "Odlu yurd" (İstanbul), "İstiqlal" (Berlin), "Azərbaycan yurd bilgisi" (İstanbul), eləcə də II cilddə "Prometey" (Paris), "Qafqasiya" (Münhen), "Birləşik Qafqasiya" (Münhen), "Azərbaycan" (Münhen), "Türk izi" (Ankara), "Türk yolu" (Ankara), "Türk amacı" (Ankara), "Mücahid" (Ankara), "Azəri-Türk" (İstanbul), "Ana dili" (Bonn), "Azər" (Berlin), "Aydınlıq" (London) və digər mətbuat orqanlarının zamanı, məkanı, tarixi, taleyi, təsisçisi, naşiri, yazarı, dövriliyi, məsləki, məramı, məfkurəsi, hədəfi, problemləri haqqında yığcam və dəqiq məlumatlar sərgiləmişdir. Geniş mühacir yazarlar, siyasətçilər, tarixçilər, ictimai xadimlər, ziyalılar arealını, mühitini gündəmə gətirən A.Tahirli bu araşdırmalarında ilk dəfə onların zəhməti, fədakarlığı, yaradıcılığı, ictimai acıları, məhrumiyyətləri, vətəndaş mövqeyi, ideoloji baxışlarını sistemli olaraq təhlilə cəlb etmiş, ümumi panoramı obyektiv dəyərləndirməyə təşəbbüs göstərmişdir.

***Mühacirət mətbuatı mövzusu ilə əlaqədar Abid Tahirlinin ən monimental monoqrafiyası 2005-ci ildə "CBS" Poliqrafiya Mərkəzində çap edilən "Azərbaycan mühacirət mətbuatında publisistika" (1921-1991) adlı elmi-nəzəri aspektdə yazıldığı əsəridir. Əslində monoqrafiya eyniadlı doktorluq dissertasiyasının tədqiqat cəbbəxanası, elmi strukturu əsasında nəşrə hazırlanmışdır.***

Xatirimdədir, on beş il əvvəl, 2005-ci ilin baharında BDU Jurnalistika fakültəsinin Mətbuat tarixi və ideoloji iş və Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedralarının birləşmiş iclasında Abid Tahirlinin "Azərbaycan mühacirət mətbuatında publisistika" (1921-1991) adlı doktorluq dissertasiyasının ilkin müzakirəsinin keçirilməsi qərara almışdır. Həmin ərəfədə Abid müəllim mənimlə görüşərək təxminən belə bir sual verdi: "Cahangir Məmmədlini tanıyırsınızmı?" Ona bildirdim ki, şəxsi tanışlığımız olmasa da, mətbuat vasitəsilə yaradıcılığına yaxşı bələdəm. Bir az fikrə getdikdən sonra Abid müəllim dedi ki, iclasa Mətbuat tarixi və ideoloji iş kafedrasının müdiri Cahangir müəllim sədrlik edəcək. O, şərt kimi Sizin iclasda iştirakınızı və çıxışınızı vacib saydı.

### *Uzun illərdən bəri*

***yaradıcılığını yaxından izlədiyim, hər bir uğuruna ürəkdən sevindiyim dostuma sevgi və məmnunluq hissi ilə iclasda mütləq iştirak edəcəyimi bildirdim...***

Aprelin sonuna yaxın, günortaya az qalırdı... Jurnalistika fakültəsinin konfrans zalı tanınmış mətbuat tədqiqatçıları ilə dolu idi. Doktorluq müdafiəsini andıran ilkin müzakirəyə dekan Yalçın Əlizadə, kafedra müdirlərindən Cahangir Məmmədli, Həmid Vəliyev, Şamil Vəliyev, professorlardan Xeyrulla Məmmədov, Vaqif Sultanlı, Xaləddin İbrahimli, Nəsiman Yaqublu, Alxan Bayramoğlu, Pərvanə Məmmədli, Qafar Çaxmaqlı və b. təşrif gətirmişdir. Bir sözlə mövzu üzrə yüksək ixtisaslı mütəxəssislərə qapılar taybatay açılmışdır.

Polemik düşüncələr, mübahisəli suallar Abid Tahirlinin sabit, təmkinli xarakterini, mübariz əhval-ruhiyyəsini məcrasından çıxarda bilmirdi.

Mövzunun tarixinə, mahiyyətinə, incəliyinə dərindən bələdlilik, peşəkar münasibət, iddiaçının təhlil və dəyərləndirmə bacarığı özünü büruzə verirdi. A.Tahirlinin "Azərbaycan mühacirət mətbuatında publisistika" adlı doktorluq dissertasiyasının müzakirəsində mənə də söz verildi. Xatirimdədir, müzakirədə vurğuladım ki, Abid Tahirlini Azərbaycan mühacirət mətbuatı sahəsində respublika üzrə bir nömrəli mütəxəssis hesab edirəm. Bu qənaətə gəlmək üçün onun indiyədək nəşr etdirdiyi "Azərbaycan mühacirəti", "Sözlə yarananlar, sözü yaşadanlar", ikicildlik "Azərbaycan mühacirət mətbuatı", "Deyilən söz yadigardır" və "Azərbaycan mühacirət mətbuatında publisistika" monoqrafiyaları yetərincə əsas verir. A.Tahirlinin böyük bir dövrü əhatə edən bu doktorluq işi onun uzun illərdən bəri apardığı səmərəli axtarışların, sözün əsl mənasında fədakarlığın, mücahidliyin, gərgin və halal zəhmətin məntiqi nəticəsidir. Tədqiqat işində zəngin məxəzlər, sanballı mühakimələr, dərin təhlil və dəyərli elmi-nəzəri qənaətlər yer alıb. Dissertasiya mükəmməl struktura malikdir və dil-üslub məziyyətləri ilə cilalanmışdır. Nə qədər mübahisəli görünsə də, doktorantın Azərbaycan mühacirət mətbuatının tarixini böyük Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalının Təbriz (1921) nəşri ilə başlamasını bu gün elmi yenilik hesab etmək olar. İlkin müzakirədə ciddi polemika da ona rəvac verirdi ki, elmimizə zəngin araşdırma təcrübəsinə malik, istedadlı və cəfakeş bir elmlər doktoru gəlir.



### *Abid Tahirlinin elmi xidmətlərindən söz açılanda*

***xüsusi vurğulamaq lazımdır ki, o Azərbaycan milli mətbuatının görkəmli nümayəndəsi, ictimai xadim, siyasi mühacir Ceyhun Hacıbəylinin həyat və yaradıcılığının sistemli araşdırılması ilə elmə gəlmiş, ilk dəfə onun "Hacı Kərim" povestini nəşrə hazırlayaraq oxuculara ünvanlamışdır. Mühacir dramaturq Abay Dağlının "Füzuli", "Dədə Qorqud", "Okullular", "Əsir ruhlar" pyeslərini qeyd və şərhlərlə çap etdirmişdir. Dünya türklərinin birliyinə, bütövlüyünə öz "Tərcüman"ı ilə müstəsna xidmətlər göstərmiş İsmayıl bəy Qaspiralının həyat və yaradıcılığını tədqiq etmiş, mühacirət mətbuatında onun haqqında dərc olunan elmi-publisistik materialları xronoloji ardıcıllıqla toplamış və araşdırmışdır. Nadir arxiv materialları əsasında general İsmayıl bəy Qutqaşınlının həyatı, hərbi xidməti və yaradıcılığı haqqında monoqrafiya yazmış, onun cəsurluğunu, igidliyini, yurdsevər-liyini danılmaz faktlar əsasında qabardaraq gənclər üçün vətənpərvərlik örnəyinə çevirmişdir.***

Abid Tahirlinin "Azərbaycan mühacirət mətbuatı" (1921-1991) adlı məlumat-soraq kitabında (2007) ilk dəfə olaraq 66 mühacirət mətbuat orqanları - qəzet, jurnal, almanax, bülleten haqqında ətraflı məlumat verilmiş, bu nəşrlərin mətbuat tariximizdəki yeri və əhəmiyyəti təhlil olunaraq dəyərləndirilmişdir. Onun "Mətbuat: aynamız və salnaməmiz" ("Elm və təhsil", 2015, 600 s.) adlı kitabı isə mətbuata və publisistikaya həsr edilmiş, yeni və sanballı tədqiqatlardan ibarətdir.

Bütövlükdə Abid Tahirli 17 kitabın, 7 monoqrafiyanın, çoxsaylı elmi, publisistik məqalələrin müəllifidir. Onun "İsmail Gaspıralı dünyası, İsmail Gaspıralı dehası" (2014, 224 s.) monoqrafiyası İstanbulda "İleri yayın evi"ndə böyük tirajla, nəfis şəkildə nəşr edilmişdir. Çoxcildlik "Milli Azərbaycan Ensiklopediyası"nın məsləhətçilərindən biri, ikicildlik "Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası"nın həmmüəllifidir. O, eyni zamanda elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş, müxtəlif vaxtlarda Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında mühazirələr oxumuş, Bakı Dövlət Universitetinin və Xəzər Universitetinin Jurnalistika fakültələrində dərs demişdir.

Abid Tahirli Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun (EİF) qrantına (N.Cabbarlı ilə müştərək) layiq görülmüş, 2017-2019-cu illərdə "Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, inkişaf mərhələləri və problemləri" adlı layihəni yüksək peşəkarlıqla işləyərək EİF-ə təhvil vermişdir.

Əməyi Respublika Prezidentinin sərəncamı ilə yüksək dəyərləndirilərək "Dövlət qulluğunda fərqlənməyə görə" (2015) medalı ilə təltif olunan Abid Tahirli bu gün də elmimizin, ədəbiyyat-şünaslığımızın tədqiqində və təbliğində öz təvazökar töhfəsini əsirgəməyərək, qürbətdə yaşayan vətən sevdalı soydaşlarımızın milli birlik ideyası ətrafında sıxlaşması üçün mühacirət mətbuatımızın müqtədir mücahidi olaraq müqəddəs məfkurə uğrunda yorulmaq bilmədən mənəvi missiyasını ləyaqətlə, şərəflə davam etdirir.

**Yazının əvvəlində Abid Tahirlinin yaradıcılığı, həyat və fəaliyyəti ilə bağlı həmkarlarımın fikir və mühakimələrini diqqətə çatdırmışdım. Sonda onu deməyi lazım bilirəm ki, Abid Tahirliyə ünvanlanan bütün deyilənlərə, sahib olduğu dəyərlərə o, bir mücahid tədqiqatçı kimi mücadilə edərək nail olmuşdur.**

## *ŞƏHİD BACISININ SÖZLƏRİ...*



**Salam mən şəhid bacısıyam.**

**Səhifələrinizə baxıram çox şəhidləri paylaşırsınız, tanıdırsız.**

**Mənim də qardaşım Fizuli uğrunda gedən döyüşlərdə, torpaqlarımızı almaq üçün irəlidə gedib, əsgər yoldaşlarına deyib ki siz evlisiz, ailəniz uşaqlarınız var, mən öndə gedecəm, raket atılması nəticəsində gözəl ürəyindən qəlpə yarası alib qəhrəmancasına şəhid olan Eliyev Mirağa Musa oğlu 30.09.2020 ci ildə, Ağcabədi rayonunun Xocavənd kəndində torpağa tapşırılıb. Hələ uşaqlıq yaşlarından hərbi verilişləri sevə-sevə izləyirdi.**

**Deyirdi ön cəbhədə vuruşacam, torpaqlarımızı alacam. Atam da Qarabağda gedən döyüşlərdə iştirak edib, veterandı.**

**Qismət elə gətirib ki, oğlu böyüdü, 2 bacının 1 qardaşı, 20 yaşında qəhrəmancasına şəhid oldu.**

**Sizdən ricam səhifənizdə, qəhrəmancasına şəhid olan qardaşımı da paylaşasız, hər kəs paylaşsın görsün tanısın.**

**Allah rəhmət eləsin! Ruhu şad, məkanı cənnət olsun!**

## *Düşmən Ordubadı raketdən atəşə tutdu*

**Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Qubadlı rayonu ərazisindən oktyabrın 15-də saat 10:44-də atdığı əməliyyat-taktiki raket Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində partlayıb.**

**Dinc sakinlərə və mülki obyektlərə zərər dəyməyib.**

**Bu barədə Adalet.az-a Müdafiə Nazirliyinə istinadən məlumat verir.**

# SOLMAYAN NƏRGİZ

(Romandan parça)



ULDUZ QASIM

**(əvvəli ötən sayımızda)**

Tüfəngdi, açılıb dəyər, cəhənnəmə, ən dəhşətlisi diri-diri ələ keçməkdi, özü də gənc qız uşağı  İti özündən başqa bir ins-cins yoxdu. Ermənilər bu nabələd məhlələr arasında, özü də şər qarışan vaxtda dolaşmağın faydası olmadığını düşünüb, deyəsən, hardasa yaxınlıqda komarlaşan "it xılı", "köpək sürüsü"nə qatışmaq üçün aralaşdılar.

Ayaq səsləri tamam kəsilmişdi, ətrafda hənirti yoxdu, Zeynəb başının üstündəki kol-kosu aralayıb ehtiyatla yanyörəyə göz gəzdirdi.Ətrafda tam sakitlik hökm sürürdü.Hava hələ tam qaralmamışdı, amma toran çalmışdı.Üzü-gözü, qolu-qılçası qan içində nəfəsi daralan Zeynəbin addım atmağa heyi qalmamışdı, qorxu, həyəcan, bir yandan da aclıq onu tamam üzmüşəlini dünyadan üzdü. Kölgə Saymazdan düşürdü, köpək sanki qızın fikrini oxudu, onun əllərini, ayaqlarını yalamağa başladı.

Qız elə bil yenidən doguldu, heysiz qollarıyla Saymaza sarıldı. Dilsiz heyvan sanki gözləriylə ona yalvarır, "gəl buralardan uzaqlaşaq" , deyirdi.

Qız cəhd eləsə də ayağa qalxa bilmədi, başı yenə gicəllənirdi, yenə yıxılıb huşunu itirdi. Aradan nə qədər zaman keçdiyinin fərqində ola bilməzdi o. Ayılanda yenə Saymazı baş ucunda gördü. İt zingildəyə-zigildəyə onun araqlarını dartışdırır, nə isə anlatmağa çalışırdı.Başı sanki ağır daş parçası idi, zorla qəddini dik?Atan qurban, gözümün nuru, oyan, anana rəmin gəlsin.Dünəndən bəri ağlamaqdan həlak olub.

- At..aaa...
- Can, bala!
- ...

Sözünü bitirməyə gücü çatmadı.

- Sən hara getmişdin, niyə bu genə düşmüsən, ay qızım? Nə yaxşı ki, bu heyvan yanındaymış, yoxsa... dilim, ağzım qurusun.Gecə o taya keçib məni çəkə-çəkə bura gətirdi.

Zeynəb qırıq-qırıq, nəfəs dərə-dərə güclə eşidilən xırıltılı bir səslə üzürxahlıq elədi:

- Bağışla, ata, düşüncəsiz iş tutdum, sizi pis vəziyyətə qoydum.

Zeynəbi bir əli ilə möhkəm tutan ata, o biri əliylə kol-kosu aralayaraq çaya endi. Tək qolla üzmək imkansızdı, amma ürəyi qovrulan kişi qızını xilas eləmək üçün hər çətinliyi gözü önünə almışdı. Məhlənin vəfalı heyvanı Saymaz da Fəzli kişi ilə yana-yana üzürdü.

Bu da ora... Arazın İran sahili... Fəzlinin canında hey nə gəzir... Sudan qırağa ayaq basar-basmaz kökündən qopan ağac kimi yerə sərələndi. Daha canında Zeynəbi tutub saxlamağa qüvvə yox idi. Qız sürüşüb yenidən suya düşdü. Vəziyyəti it ağlıyla duyan köpək qızın dalınca çaya cumdu. Ata son gücünü toplayıb qıjov dalğaların sürükləməkdə oldu-

aralaşdırmaq istədi, düşündü ki, heyvandı, səs salıb işləri korlamasın, o biri yandan da tam əmin idi ki, basqınçılar itpişik, adam, mal-heyvan demirlər, gözə görünəni atəşə tuturlar. Deyirlər it itin ayağını basmaz, bu quduzlar iti də vururlar...

- Saymaz, gəlirlər, sən qaç, canını qurtar barı...

İt hələ də boğuq səslə mırıldanıb qızın ipək donunun ətəyini dartışdırdı.Zeynəb qamışların arasıyla ehmal-ehmal evlərinin kəllayısındakı moruqluğa tərəf süründü. Kol-kos əlini-ayağını cırmaq-cırmaq eləsə də qız dayanmadan sürünüb özünü ot tayalasının dibindəki çuxura saldı. İt qızın böyrünə sığınıb gözünü döydü.

Əli avtomatlı iki quldur qamışlığı ələk-vələk eləyəndən sonra kolluğa tərəf yeridi.Anlaşılmaz, qarış-quruş danışıq səsləri indi bir qədər də yaxından gəlirdi, bəlkə heç qızla dığaların arasındakı məsafə yüz metr də olmazdı. Xilas yalnız Allahın möcüzəsinə qalmışdı...

Ot tayasını didişdirib üstlərini basdırmışdılar. Təhlükə sovuşana qədər tərpənib şıqqıltı salmasaydılar, bəlkə də görən olmazdı...

Birdən hiss elədi ki, it yanında yoxdur, o çuxurdan necə, haçan çıxmışdı ki, xəbər tutmamışdı.İnsan fəlakət anında nicat duyğusundan savayı heç nə barədə düşünə bilmir, ətini kəssən belə xəbər tutmaz.İndi belə bir hal yaşayırdı Zeynəb.Sükutu qorumaq həyatı qorumaq demək idi.Əslində itin çuxurdan çıxıb havalı bir şəkildə kolluqla qamışlıq arasında hürə-hürə dazımağı qızın salamat qalması, ələ keçməməsi üçün şans yaratmışdı.

Bu mənzərə sanki dığaları inandırmışdı ki, həndəvərdə sahibsiz qalıb havalanan itdü.Amma hər necə olsa hərəkət etmək lazım idi. O, sürünüb yenidən kanala girdi, axar suyun əksinə irəliləmək çətin olsa da qız var gücünü toplayıb topuğunu güclə örtən suyu mümkün qədər şappıltadmadan gedirdi. Bir xeyli gedəndən sonra dayanıb nəfəsini dərdi, kanalın tirəsindən ətrafa boylandı, gözə dəyən yox idi.Qız kanaldan çıxdı. Evləri yüksəkdə təpənin döşündə oldugundan toranlıqda uzaqlaşan iki qaraltını görə bilirdi.

Elə bil get-gedə qorxu-ürkü qızın canından çıxırdı. Zəminin içiylə sürünərək evlərinə lap yaxınlaşdı, tut bağına girdi. Ətrafa diqqətlə göz gəzdirdi.İns-cins yoxdu.Bir qədər əvvəlki atəş səsini xatırladı, Saymazı, vəfalı köpəyini düşündü.Binamuslar yazıq heyvanı öldürmüş olmasınlar, acıacı düşünüb duruxdu, boğazının içini qəhər acısı tutdu. Ani xışıltıdan diksindi, ürəyi az qala yerindən çıxacaqdı. Yüngül meh kökü torpağı sarıbsarmalayan, nəhəng gövdəli, qollu-budaqlı tut ağacının yarpaqlarını astaca yellədirdi.Evlərinə tərəf sürünməyə davam elədi.

Qorxu, aclıq və yuxusuzluqdan başı gicəllənir, ürəyi bulanır, kol-kosun qanatdığı yaraları gör-gör göynəyirdi.

Hava isə anbaan qaralmaqdaydı, O, qatı qaranlığın düşməsini gözləməliydi. Tut ağacının altını gəbə kimi bürüyən otluqda uzandı ki, hərəkət eləməyə güc toplasın. Güc hardaydı, dünya gözündə qaraldı, uzandığı yerdəcə huşunu itirib lam-süst qaldı.

Zeynəb özünə gələndə gecə yarıdan keçmişdi.Əvvəlcə harada olduğunu anışdıra bilmədi.Key-key ətafına baxdı, tutduğu işi, indi belə bir çıxılmazlığa düşdüyünü yadına salanda vahimələndi.Yarıyuxulu, yarıoyaq qız başının üstünü kəsdirən kölgəni görüncə, bu da son, düşüncəsiylə

düzəltdi, oturdu, Ay işığında qarşısında düşüb qalan ölü quşu, kəkliyi görəndə dönüb itə sarı baxdı.Saymaz quyruğunu bulayır, gözlərini Zeynəbdən ayırmırdı, sanki "acsan ye, qüvvən olsun, səni sağ-salamat aparım", demək istəyirdi.

Heyvanın davranışlarından təsirlənən Zeynəb göz yaşlarını saxlaya bilmədi, elə bu vaxt sanki ilahidən ona güc gəldi, ayağa qalxıb Saymaza yaxınlaşdı, onun başını tumarladı, kəkliyi yerdən götürüb itin qarşısına qoydu, pıçıldadı:

- Sən ye, Saymaz, sənin qismətindi, mən çiy əti necə yeyim?

Heyvan sahibini yedirtmək üçün çox güman ki, çəkillikdən tutub gətirdiyi kəkliyi ayağı ilə kənara itələdi, yəni, " sən acsansa, mən də yemərəm" - dedi.

Saymaz onu dartışdırmağa başlayanda Zeynəb anladı ki, vaxt itirmək zamanı deyi, təhlükə hər an təkrarlana bilər. Son gücünü toplayıb irəlilədi. Ay işığında ağaran cığırı tutub gedirdi. Sahilə az qalırdı, Arazın şırıltısı eşidilirdi, amma daha yeriyə bilmirdi, bir-iki dəfə səndirlədi, anasından ayrılıb dogma ata yurduna gedən, oradan üzügeri, köçkün qafiləsinə qoşulmaq üçün qayıtdığı yolda üçüncü dəfə huşunu itirdi...

***

...ancaq Saymazın onu hara isə sürüdüyünü hiss edirdi...

Qızını itin ağzından al-qan içində alan Fəzli kişi ciyərparəsinin başını dizinin üstünə qoyub göz yaşı içərisində çağırırdı:

- Aç gözünü, qızım, şükr nəfəsin gedib-gəlir, sağsan, niyə axı özünü odun-alovun içinə atırdın, ay bala? Vəhşilərin əlinə keçsəydin, nə edər-

- Nəyi bağışlayım, qızım, şükr salamatsan. Səni itirsək, anan dözməz, bağrı partlayar, ya da başına hava gələr!..

***

Arazın o tayı səsli-küylü idi. Çayı keçən kişilər sahildə toplaşıb nə edəcəklərini, ailəni, uşağı bu fəlakətdən necə qurtaracaqlarını düşünür, götürqoy edirdilər. İki dəhşətli günün basqısının əldən saldığı qadınlar quru yerə çöküb ailə böyüklərinin qərarını gözləyir, onlara qısılan uşaqlar yetim quzu balaları kimi mələşirdilər.

Fəzli kişi heç vaxt yaxından görmədiyi çayın o tayına ağır yüklə keçməliydi, yəni qızını İran ərazisinə addatmalıydı. O yerə ki, nəinki bütün kənd, hətta ordan-burdan qaçıb onlara qoşulan qonşu rayonların, kəndlərin əhalisi dərininə-dayazına baxmadan özünü çaya vurub ölüm-zülüm ora keçmişdilər.

Orda bəlkə də ən girgin adam Fəzlinin arvadı, Zeynəbin anası Pəri idi. O, Zeynəbi sahilə yaxın, yulğun ağacının böyründə oturdub ətrafa boylandı.

Araz gözünə bir ayrı cür dəydi, sanki çay baş verənləri, adamların halını duyurdu. Bir az əvvəlkinə baxanda sakitdi Araz.

Fəzliyə elə gəldi ki, çayın bulanıq suyu bir az durulub, sanki çarəsiz adamlara canlarını qurtarmaq üçün yol verirdi Araz. Fəzli ayaqüstə zorla duran qızını çiyninə alıb üzə-üzə o taya keçirməliydi. Hündürboylu, enlikürəkli, hünəri, qoçaqlığı ilə yaxın obalarda hörmət-izzət sahibi olan, hər çıxılmaz yoldan, çətinlikdən çıxmağı bacaran adam indi aciz qalmışdı.

Kişi qızını sağ-salamat sərhəddin o tayına necə keçirəcəyini düşünür, Allahdan mədəd diləyirdi.

ğu Zeynəbin qolundan tuta bildi. Su hopmuş palaz kimi heysiz-hərəkətsiz vücudu oradan dartıb çıxarmaq güc istəyirdi. Dogma balasını fəlakətin pəncəsindən xilas etmək üçün elə bil qeybdən güc alırdı... Qızı qırağa şıxardıqdan sonra özü də çayın qırağına çıxmağa taqət tapdı.

Qız ağır-ağır nəfəs alırdı.Atası onu göy otluğun üstünə uzatmışdı.Bir azdan özünə gələr, qoy uzansın, tam bir sutkanın can çəkişməsi əldən salıb yazığı. Ata bilirdi ki, qızı burdan o yana aparmağa qüvvəsi qalmayıb. Ona görə də zindan kimi ağır addımlarını çəkib təkbaşına camaatın toplaşdığı tərəfə getdi ki, kimisə köməyə çağırsın.

Valideynləri bərabər döndülər. Kənddən də bir neçə adam onlarla birlikdə gəlmişdi. Anası Zeynəbi taqətsiz, əyni başı didik-didik, üz-gözü qançır, otluğa uzanmış halda görüb vaysındı:

- Gör nə haldasan, Zeynəb? Səni kim bu günə qoyub? Oooy, mənim başıma daş düşsün, bəs sən dedin atanın yanına gedirsən? Deməli, evə getmisən, o dəftərlərin dalınca?Yaxşı ki, onlar səni əsir almayıblar.İlahi, biz neyləyərdik onda.Günah məndədi, gərək səni buraxmayaydım tək başına. Bilmirəm ki, bu qarageymiş gündə sən hardan gəlib çıxdın kəndə, oturmuşdun dana isti yerdə, Bakıda...

Həyat yoldaşı onu sakitləşdirməyə çalışdı:

- Pəri, qara-qışqırıq salma. Onsuz da səni eşitməyə halı qalmayıb.Qan itirib, huşu üstündə deyildi.Şükür salamatdı.

Qızın qoluna girib ayağa qaldırdılar.Adamlar komalaşan yerə qədər iki yüz, üç yüz metrlik yolu başa çatmaq üçün yarım saatdan çox vaxt axıb getdi.



*Zahir Əzəmət*

# *Sizə zəfər gətirəcəyik*

*sizə zəfər gətirəcəyik*
*bizə məktub yazın heç olmasa*
*sətirlərdən ürəyiniz boy versin*
*səbirlə dinləyin şikəst qayıdan*
*əsgər yoldaşlarımızın gecə sayıqlamalarını*
*üz çevirib getməyin uşaqlarımız dilənəndə*
*su verin*
*çörək verin!*
*atalarımıza siqaret*
*analarımıza ürək dirək verin…*

*sizə zəfər gətirəcəyik*
*bizə barıt qoxusu dadmayan*
*səhər saxlayın*
*bir az günəş*
*bir az dəniz…*
*bir az da soyuq xırdalan pivəsi*
*şəxsən mənim üçün*
*və sevməyin ay əclaflar*
*bizi gözləyən qadınları...*

## *Nazirdən orduya könüllü gedən tələbələrlə bağlı açıqlama*

**Orduya könüllü gedən tələbələr sağ-salamat qayıtdıqdan sonra təhsilini davam etdirəcəklər. Bununla bağlı bəlli prosedurlar var.**

**Adalet.az xəbər verir ki, bunu Təhsil naziri Emin Əmrullayev deyib.**

**Onun sözlərinə görə, ölkə rəhbərliyinin müvafiq sərəncamı ilə bağlı ötən semestrdə sosial baxımdan həssas olan ailələrin tələbələrinin təhsil haqqı dövlət tərəfindən ödənildi.**

**"Hazırda ikinci semestr üzrə də işlər aparılır. Oktyabrın sonu, noyabrın əvvəlində bu ödəniş ediləcək. Bu, 12 min tələbəni əhatə edəcək. Bu il birinci kursa gedən və həmin kriteriyalara cavab verən tələbələr yenidən müraciət edə bilərlər. Prinsipcə həmin tələbələrə də köməkliyinin edilməsi nəzərdə tutulur. Bunulna bu semstrdə 15 mindən çox tələbənin maliyyələşməsini planlaşdırırıq".**

Etibar CƏBRAYILOĞLU

# Venera - Bizim Zöhrə xanım



**Məhz bizim Zöhrə xanım. Onu yaxından tanıyanlar, dost-tanışlar, hətta ömründə onunla birinci dəfə ünsiyyət quran insanlar belə Zöhrə xanımı özünün yaxını, doğması sayır.**

***Payızdı da-***
***Yağışının ucundan tut***
***çıx göyə-***
***Bəlkə əlin göyə dəyə!***
***Payızdı da-***
***Nə elə bir soyuğu var,***
***Nə elə bir istisi...***



Gözəl Zöhrə xanım məhz belə bir fəsildə-payızın oğlan çağında dünyaya gəlib. Payızda doğulan Zöhrənin adının bir mənası da Venera-Bahar ilahəsi ilə bağlıdır.

Lap qədimlərdə Romada Bahar ilahəsini belə çağırırmışlar. Zöhrə ulduzu-Venera həm də Günəş sisteminə daxil olan yeddi ulduzdan birinin, həm də görünən ən parlaq ulduzun adıdır. Bizim Zöhrə xanıma adının hər iki mənası yaraşır.

Bahar ilahəsi kimi hər zaman yaraşıqlı, ulduz kimi həmişə parlaqdır.

Filologiya üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Zöhrə Əliyeva yüksək savadı, daxili zənginliyi, mədəniyyəti və pozitivliyi ilə hər kəsdə özünə qarşı rəğbət yaradır. Zöhrə xanımda diqqət çəkən bu müsbət keyfiyyətlər təbii ki, boya-başa çatdığı ailə ocağında formalaşıb. Atası tanınmış alim-pedaqoq, mərhum Qulamhüseyn Əliyev uzun illər çalışdığı Dövlət Pedaqoji Universitetində bu gün də böyük ehtiramla anılır. Azərbaycanın müxtəlif rayonlarında yaşayan çoxsaylı tələbələri Qulamhüseyn müəllimi obyektiv və tələbkar pedaqoq kimi xatırlayırlar.

Zöhrə xanınmı fərqləndirən və hörmət qazandıran əsas cəhətlərindən biri də şübhəsiz ki, işinə yaradıcı və peşəkar yanaşmasıdır.

AZ.TV-nin populyar "Səhər"ində, "Lider" TV-nin "Axşamçağı"nda bu keyfiyyətlərinə görə seçilib, Dövlət Dillər Universitetində pedaqoq kimi çalışanda da bu xüsusiyyətləri onu müəllim və tələbə həyatinin sevimlisinə çevirib.

Zöhrə Əliyevanın səmərəli fəaliyyətindən danışarkən Mədəniyyət Nazirliyinin mətbuat katibi kimi gördüyü işlərdən söhbət açmamaq mümkün deyil. Uzun illər bu məsul vəzifədə çalışanda Zöhrə xanım media cəməsində böyük hörmət qazandı. Peşəkarlığı, mətbuat işçiləri ilə rahat ünsiyyət qurması həmkarlarımızın diqqətindən heç vaxt yayınmadı, təsadüfi deyil ki, həmin illərdə Zöhrə xanımın adı "İlin ən yaxşı mətbuat katibi" sorğularında daim ön sıralarda çəkilirdi. Zöhrə xanımın jurnalistlərlə qurduğu faydalı və işgüzar əməkdaşlıq nəticəsində Mədəniyyət Nazirliyinin yerli və beynəlxalq əhəmiyyətli tədbirləri mətbuatda geniş təbliğ olunurdu.

Zöhrə xanım Mədəniyyət Nazirliyinin sözçüsü olarkən onunla Azərbaycanın əksər bölgələrini dolaşmaq, bu gözəl insanı yolda müşahidə etmək və daha yaxından tanımaq imkanım olub. Zöhrə xanımın dünya incəsənəti və mədəniyyəti ilə bağlı söhbətləri, jurnalistikamızın bugünkü durumu barədə düşüncələri, şən zarafatları ən uzaq yolları da yaxın edib.

Onun hər bir səfər yoldaşına necə diqqətcil, həssas münasibət göstərdiyinin şahidi kimi deyə bilərəm ki, dəyərli dostumuz bu məsələdə də ən yüksək tərifə layiqdir.

Zöhrə Əliyeva bu gün yenə jurnalistlərlə çiyin-çiyinədir, Mədəniyyət Nazirliyinin "Mədəniyyət.az" jurnalının baş redaktorudur.

Jurnalın son illər oxucular, mütəxəssislər arasında uğur qazanmasında dostumuzun danılmaz əməyi var.

***... Söz də var ki, payızda-***
***Yarpaqlar alışanda,***
***Kölgə kölgə içində,***
***Kölgəyə qarışanda deyiləsidi ancaq...***

Bu payız günündə dəyərli insana nə arzulamaq olar? Daim ətrafındakı insanlara pozitiv hisslər ötürən, biz dostların sevincinə şərik olub kədərimizi bölüşən zərif və gözəl Zöhrə xanıma elmi-pedaqoji fəaliyyətində, media sahəsindəki işlərində daha böyük və davamlı uğurlar diləyirəm.

***P.S. Gözəl dost, istedadlı alim və peşəkar jurnalist Zöhrə Qulamhüseyn qızı Əliyevanın yubileyinə həsr edilən bu yazıda mərhum şair Camal Yusifzadənin şeirlərindən, yaxın dostlarımızın, ortaq tanışlarımızın arzu və istəklərindən istifadə olunub.***

# "Erməni terrorizminin mahiyyəti hər kəsə bəllidir"

**"Erməni terrorizminin mahiyyəti hər kəsə bəllidir, zaman-zaman etibarilə onlar tərəfindən terror aktları həyata keçirilib. Ümumiyyətlə, Ermənistan terrorizmi xronoloji mahiyyət etibarilə 2 yerə bölünür. Birincisi, 20-ci əsrin əvvəllərində törədilən terror aktları, ikincisi isə ASALA terror təşkilatının 1973-cü ildən 1985-ci ilə qədəri əhatə edən dövrü.**



Erməni İnqilabi Federasiyası 1890-cı ildə yaradılmışdı. Alimlər qeyd edir ki, bu erməni radikal təşkilatlarından biri idi və ilk günündən də zorakılığa əl atırdı, Osmanlı İmperiyasında, Rusiya İmperiyasında terrorlar həyata keçirirdi. 1905-ci ildə Rusiya İmperiyasının ərazisində türklərə qarşı milli qırğın həyata keçirmişdir. Rusiya çarının nümayəndəsi öz məktubunda yazırdı ki, məsuliyyət Erməni İnqilabi Federasiyasının üzərinə düşür. Hər kəs onu "Daşnaqsütyun" partiyası kimi tanıyır. Bütün bunlara baxmayaq ermənilər həyasızcasına deyir ki, biz heç bir zaman zorakılıq həyata keçirməmişik. 1890-cı ildən başlayaraq terror aktları erməni hərəkatının ayrılmaz hissəsidir. 1973-cü ildən 1985-ci ilə qədər də ASALA terror təşkilatı 188 terror aktı törədib ki, bunun da nəticəsində 36 nəfər türk diplomatı və ailə üzvləri öldürülüb. Bu gün də ermənilərin xisləti dəyişməyib. Keçmişdə törədilən terror aktı ilə hazırda Gəncəyə raket atılmasının heç bir fərqi yoxdur. Terror edirlər, sonra da riyakarcasına deyirlər ki, etməmişik".

**Bu sözləri "Ədalət" qəzetinə açıqlamasında BDU-nun Beynəlxalq münasibətlər kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru Hüseynov Fərhad deyib:**

"Atəşkəs rejimində Tərtər, Ağdam və digər rayonlarımız atəşə məruz qalır. Erməni terrorçuları bizim mülki əhalini hədəf alırlar. Bununla yanaşı psixoloji müharibə həyata keçirib Azərbaycan vətəndaşlarında vahimə yaratmaq istəyirlər. Amma yerli əhalimiz qorxmur, qaçmır və ermənilərin psixoloji müharibəsində belə uduzmur. Əhalimiz əzmkarlıq nümayiş etdirir.

Hər kəs yaxşı bilir ki, istənilən böhrandan sonra dirçəliş olur. Zənnimcə, işğaldan azad olunmuş torpaqlarımıza investisiyalar yatırılacaq, fərqli-fərqli iqtisadi layihələr həyata keçiriləcəkdir. İndiyə qədər nə müşahidə edirdik? Dağlıq Qarabağ və ona bitişik ərazilərimiz 90-cı illərin əvvələrində olduğu kimidir. İnkişaf belə yoxdur. Amma düşünürəm ki, işğaldan azad olunandan sonra torpaqlarımızda dirçəliş özünü göstərəcək".

**Rövşən Tahir**

## *ABŞ Meksikanın eks-müdafiə nazirini həbs etdi*



**ABŞ-ın Los-Anceles hava limanında Meksikanın keçmiş müdafiə naziri Salvador Senfueqos Sepeda saxlanılıb.**

Bunu Meksika Xarici İşlər naziri Marselo Ebrard deyib. O, eks-nazirə lazım olan konsulluq yardımının təqdim ediləcəyini bildirib. Qeyd edək ki, Sepeda 2012-2018-ci illərdə Meksikanın müdafiə naziri olub.

**M.CƏFƏROVA**

## *Tramp açıqladı: Hakimiyyəti verməyə hazıram!*



**Hakimiyyəti dinc yolla təhvil verməyə hazıram.**

Bu sözləri ABŞ Prezidenti Donald Tramp deyib.

"Dinc yolla hakimiyyətin ötürülməsi... Mən tamamilə bunu istəyirəm. Lakin ideal variantda təhvil vermək istəmirəm. Daha çox qələbə qazanmaq istəyirəm", - deyə Ağ Ev rəhbəri seçki təşviqatı kampaniyasında çıxışında bildirib.

**MEHRİBAN**



# BAYAT



№ 43 (624)



Nüsrət Kəsəmənli

## GETMƏK İSTƏYİRSƏN BƏHANƏSİZ GET

Gətmək istəyirsən, bəhanəsiz get,
Oyatma mürgülü xatirələri.
Səsin həmin səsdir, baxışın ögey,
Gedirsən, səsin də yad olsun barı...

Sən dəniz qoynuna tullanmış çiçək,
Üstünə dalğalar atılacaqdır.
Saxta məhəbbətin saxta sənəd tək
Nə vaxtsa üstündə tutulacaqdır.

Döşənib yollar tək ayaqlarına
Sənə yalvarımmı?.. Bü mümkün deyil!
Qoymaram qəlbimtək vüqarım sına
Alçalıb yaşamaq ömür-gün deyil.

Demirəm sən uca bir dağsan, əyil,
Demirəm qalıbdır əlacım sənə.
Nə səndə məhəbbət qara pul deyil,
Nə mən dilənçiyəm, əl açım sənə...

Getmək istəyirsən... O yol, o da sən...
Bir cüt göz baxacaq arxanca sənin.
Getdinmi... Nə vaxtsa dönmək istəsən
Tikanlı yastığa dönəcək yerin.

Getmək istəyirsən... Nə danış, nə din!
Yox ol uzaqlar tək dumanda, çəndə...
Nəyimi sevmişdin?Deyə bilmədin,
İndisə yüz eyib görürsən məndə.

Getmək istəyirsən, bəhanəsiz get,
Oyatma mürgülü xatirələri.
Səsin həmin səsdir, baxışın ögey,
Gedirsən, səsin də yad olsun barı...

## ETİRAF

Ömür-gün yoldaşıma

Fikirli gəlirəm, dalğın gəlirəm,
Qayğılı gözlərin çəkir şəklimi.
Bəzən gec gəlirəm, yorğun gəlirəm
Bitirsən qapıda bənövşə kimi...

Bəlkə min suçumu bilmisən mənim,
Birini üzümə vurmamısan heç.
Eyhamla üzümə gülmüsən mənim,
Bircə yol üzümə durmamısan heç.

Hər kəs taleyilə gəlir həyata,
Demirəm, ürəyi yumşaq olmuşam.
Dəcəl uşaqlara mülayim ata,
Səninçün ən dəcəl uşaq olmuşam.

Sənsən dağlar kimi səbrlə dözən
Bəlkə tərəddüdlə çox döyüşmüsen.
İsti bir sevgiden yazmişam bəzən,
Soyumuş çayımı sən dəyişmisən...

Üzümdə kədərdən bir iz görəndə,
Şirinim olmusan, acım olmusan.
Qohumdan, tanışdan pis üz görəndə
Sən anam olmusan, bacim olmusan.

Bir kövrək şeirimdən gözlərin dolub,
Nə deyim, özgədən çox yazıb qələm.
Nə qədər düyünlü günümüz olub,
Düyünlü qaşını görməmişəm mən...

Bir əlin mətbəxdə qabda-qaşıqda,
Bir gözün istide, tüstüdə olub.
Bir əlin beşikdə oğul-uşaqda,
Bir gözün həmişə üstümdə olub.

Yollar çarpaz-çarpaz, yollar qarışıq...
Gecə yol gedirəm qulağı səsdə.
Bizim pəncərədən süzülən ışıq-
Gözümün nurudur yolumun üstə.

Fikirli gəlirəm, dalğın gəlirəm,
Qayğılı gözlərin çəkir şəklimi.
Bəzən gec gəlirəm, yorğun gəlirəm
Bitirsən qapıda bənövşə kimi...

## SƏN DEMƏ TƏZƏDƏN SEVMƏK OLARMIŞ

Sən demə təzədən sevmək olarmış,
Tale də təzədən gülə bilərmiş,
Küsüb gözüyaşlı gedən məhəbbət
Peşiman-peşiman dönə bilərmiş.

Ürək bulud kimi boşalırsa da
Deməк bulud kimi təzədən dolur.
Sonuncu şöləsi titrəyən şamdan
Ayrı bir şamı da yandırmaq olur.

Sən demə təzədən sevmək olarmış,
Köhnə yaraları vaxt, zaman silir,
Kəsilən budaqla ölən ağaclar
Təzə pöhrələrlə dirilə bilir.

Ağlaya-ağlaya dünyaya gəlib
Biz ana südüylə gülməmişikmi?!
Hər axşam sapsarı batan günəşi
Hər səhər təzə-tər görməmişikmi?

Sən demə təzədən sevmək olarmış,
Sevgi fürsət deyil quş kimi uça.
Nə də kölgədir ki,
Qaçasan qova,
Ya da sən qovasan
O səndən qaça...

Çıxarsan qəlbindən ötən sevgini,
Bir gün də tənhalıq sıxacaq səni.
Kiməsə etdiyin yaxşılıq kimi
Məhəbbət qarşına çıxacaq sənin.

İlk sevgi yuvadan düşən quşcuğaz,
Körpə qanadları pöhrələnməyib.
Məcnunun ahıyla uçan məhəbbət
Min hiylə əliylə yerə enməyib...

Mən ki görməmişəm sevgini susan,
Məhəbbət zirvədə başlənən qarmış.
Kim deyir bir dəfə sevilir insan,
Sən demə hər zaman sevmək olarmış...

## BİRİ VARDI BİRİ YOX

Olan olub, keçən keçib bəlkə də,
İndi daha kövrəlməyin yeri yox.
Ömrüm boyu belə gəlib mənimki
Əvvəlindən biri vardı, biri yox.

Uzaqdaydı mən istəyən ocaqlar,
Urəyimdən gəlib keçdi sazaqlar.
Atalıydı, analıydı uşaqlar,
Bizim evdə biri vardı, biri yox.

Gözlərimə doldurmuşam yağışı,
Bir köynəkdə çıxarmışam mən qışı.
Şalvar-pencək geyinirdi tay-tuşum,
Məndə isə biri vardı, biri yox.

Üzüm güldü, tələbəyəm deyəndə,
Sıxılırdım dost pencəyi geyəndə.
Müəllimlə dil tapa bilməyəndə
Qiymətimin biri vardı, biri yox.

Qəlbim yandı ilk sevgimdən, eşqimdən,
Dara düşdüm, əl ummadım heç kimdən
Məclislərdə can deyib can eşidən
Dostlarımdan biri vardı, biri yox.

Mən orduya nələr görüb getmidim,
Ürək alıb, ürək qırıb getmişdim.
İki qıza könül verib getmişdim,
Qayıdanda biri vardı, biri yox...

Uzaq gəzdi əmi, dayı, bibilər,
Sözarası mənə "evlən" dedilər.
Nişan üçün iki şey istədilər,
Məndə isə biri vardı, biri yox.

Vaxt gələcək bu günü görəcəksən,
Çox suala gözünü döyəcəksən.
Vaxt gələcək sən özün deyəcəksən,
Deyəcəksən: "biri vardı, biri yox!"

## DÜNƏN TOYUN İDİ

Sağlıqlar deyildi çığır-bağırla,
Üşüyən qəlbinə girən oldumu?
Gözündən qəlbinə düşən cığırla,
Axan göz yaşını görən oldumu?

Sağlıqlar uzandı... səhərə kimi,
Çalıb-oynadılar, kef eylədilər
Çırpıb pillələrə son ümidimi
"Vağzalı" üstündə dəfn eylədilər

Son ümid! O mənim gərəyim idi...
Yoluna şam tutdu necə qız-gəlin,
Şam deyil! O mənim ürəyim idi:
Son dəfə yanırdi yolunda sənin.

Getdin... O köhnə yol nur yolu idi.
Izin düşən yerdə gül acmadı ki?
Özgəylə kecirdin o yolu indi,
Ayağın altından yer qaçmadı ki?

Bu yollar nə yaman vəfasız imiş,
Niyə çiliklənib tökülmədilər
Düşüb qədəminə hər eniş, yoxuş,
Niyə ürəyimə cəkilmədilər...

Başına gül-çiçək səpdilər o gün,
Alışan qəlbinə su səpmədilər.
"Get" deyib alnından öpdülər o gün,
Sınıq taleyini düzəltmədilər....

Güldün... Gülüşünün ömrü cox qısa
Bir həsrət axırdı qanında sənin.
Orda bütün yerlər tutulmuşdusa
Yerim görünürdü yanında sənin

Dünən toyun idi... Xoşbəxt olasan!
Görünür bu bizə qismət deyilmiş
Unut! Elə bil ki sevdiyin oğlan
Getdiyin oğlanmış. Nüsrət deyilmiş...

## ƏLLƏRİN NƏ YAMAN SOYUQDUR GÜLÜM

Əllərin nə yaman soyuqdur, gülüm,
Əllərin elə bil qar çiçəyidir.
Ay aman, əlində dondu ki əlim,
Əllərin əlimin buz ələyidir.
Biz ki cənubluyuq,
bu soyuq hardan?
Gərək külümüz də soyuq olmasın.
Gözümüz dünyada ən qaynar bulaq,
Gərək əlimiz də soyuq olmasın.

Oddan yoğrulmuşuq, atəşik axı,
Qəlbimiz duyğular tonqalı kimi.
Yanağın elə bil alov dilmi,
İllərin bir taxta yonqarı kimi...
Əllərin nə yaman soyuqdur, gülüm,
Niyə bu soyuğu indi duymuşam?
Bir ömrün məhəbbət taleyini mən
O soyuq əllərə necə qıymışam?!

Ay üzübaharlı,
əli qış sonam,
Gileyim gülməli gəlməsin mənim.
Qorxuram
sevgidə soyumağın da
Əlindən başlaya,
əlindən sənin;
Əllərin nə yaman soyuqdur, gülüm...

## BİR SEVDA AĞLAYIR İÇİMDƏ MƏNİM

Gəl dedim, köksümə yaralı düşdü,
Əl açdım, əllərim aralı düşdü.
Ona bu ağ dünya qaralı düşdü,
Bir sevda ağlayır içimdə mənim.

Qədri bilinmədi, ömrü qırıldı,
Həsrət boyun büksdü, hicran yoruldu.
O hər gün incidi, hər gün vuruldu,
Bir sevda ağlayır içimdə mənim.

Min gül solduranlar, min gül dərdilər,
Yüngül çiçəkləri yüngül dərdilər,
Mən ürək açanda baxıb gördülər,
Bir sevda ağlayır içimdə mənim.

Dünəni bükülü xatirəsinə,
Vurğundur bu günü xatirəsinə,
Qısılıb mürgülü xatirəsinə
Bir sevda ağlayır içimdə mənim.

Bacara bilmədim özüm-özümlə,
Dil tapa bilmədi işim sözümlə,
Mənim fəryadımla, mənim gözümlə,
Bir sevda ağlayır içimdə mənim.

Mənəm daş daşıyan o məhəbbətə,
İtmiş qaş-daşıyam o məhəbbətə,
Özüm baş daşıyam o məhəbbətə,
Bir sevda ağlayır içimdə mənim.

Gec oldu qədrini mən biləndə də,
Sevinci yaşayıb, qəm böləndə də,
Üzümə baxmayın mən güləndə də,
Bir sevda ağlayır içimdə mənim.



*Muxtar QASIMZADƏ*

## ƏSGƏR ANDI

*Haqq yoludur yolumuz,*
*Yol gedirik sabaha.*
*Qələbədir andımız,*
*Bitməlidir bu dava.*
*"Ya Qarabağ, ya ölüm",*
*Yox geriyə yol daha.*
*Öndə öndər oğludur,*
*İlham Heydər oğludur.*
*Erməni sümsüyünə,*
*Nankora yox amanım.*
*Bütövlükdür əhdimiz,*
*Yaşa, Azərbaycanım.*
*Xor oxuyur cərgəmiz,*
*Öndə baş komandanım -*
*Ulu öndər oğludur,*
*İlham Heydər oğludur.*
*İşğalçılar əzilsin,*
*Biz yenilməz hünərik.*
*Torpağımdan çəkilsin,*
*Tarix yazan zəfərik.*
*Göylərə bayraq çəkən,*
*Ay-ulduzlu əsgərik.*
*Öndə öndər oğludur,*
*İlham Heydər oğludur.*
*Şuşanın zirvəsində,*
*Hilalımı görürəm.*
*Şəhidlərin səsində,*
*Əməlimi görürəm.*
*Murovun sinəsində,*
*Heykəlimi görürəm, -*
*Öndər zəfər oğludur,*
*İlham Heydər oğludur.*
*Qalx, ulusal Vətənim,*
*Xoş sabaha gedirik.*
*Ucal, ucal Vətənim,*
*Bütöv çağa gedirik.*
*Əl çal, əl çal Vətənim,*
*Qarabağa gedirik.*
*Başda öndər oğludur,*
*İlham Heydər oğludur.*

## AZƏRBAYCAN-TÜRKİYƏ

*Ulu torpaq, mərd diyar,*
*Canım, gözüm, bəxtiyar.*
*Min könüldən oxuyar,*
*Sarılaraq sevgiyə -*
*Azərbaycan-Türkiyə.*

*Gəzərəm odlu-odlu,*
*Qara dəniz nə mutlu.*
*Bakı, Ceyhan umudlu*
*Qanad açar zirvəyə*
*Azərbaycan-Türkiyə.*

*Təbrizim, Qarayazım,*
*Qarabağım, Kıprızım.*
*Oxuyur tarım, sazım*
*Bir olsun ellər deyə,*
*Azərbaycan-Türkiyə.*

*İstanbul, Bakı qardaş,*
*Ərzurum, Şəki qardaş.*
*Naxçıvan ulu sirdaş*
*Dönüb yola, körpüyə*
*Azərbaycan-Türkiyə.*

## ŞƏHİDİ ALLAH SEVƏR

*Ucalardan ucasan*
*Ucalar uca olur.*
*Ucalığa ucalan*
*Günəşcə, Ayca olur.*

*Bu sevginin sirrini,*
*İgidlər bilər ancaq.*
*Ucalığın yerini*
*Şəhidlər bilər ancaq.*

*Sən əsgər şərəfini*
*Ən müqəddəs borc sandın.*
*Yardı düşmən səfini*
*Əzmin, döyüşçü andın!*

*Torpağın hər qarışı*
*Candan əzizdi sənə.*
*Bu ellərin alqışı*
*Coşqun dənizdi sənə.*

*Döyüşlərə atıldın*
*Susdurdun neçə düşmən.*
*Səni bağrına basdı,*
*Qoruduğun bu Vətən.*

*Şəhidi Allah sevər,*
*Nurlu nəğməyə döndün.*
*Şəhidlik uca zirvə,-*
*Özün zirvəyə döndün.*

*Naxçıvan*

**Elman Cıvıroğlu**

# Sülh İstəyirsənsə, Döyüşə Hazır Ol!



***Sayın Aqil Abbas, " Hazır ol cəngə, əgər istər isən sülhü səlah" aforizmini yüngülcə dəyişərək belə bir başlıq altında yazdığım yazı 17 yanvar 1992-ci il tarixində qəzet səhifəsində yer almışdır. Yazının müəyyən qədər aktuallığını göz önündə tutaraq milli-mənəvi dəyərlərimizin müasir anlamda inkişafının yorulmaz təbliğatçısı "Ədalət" in səhifəsində verilməsini rica edirəm. Bu afrizim əski latınların da diqqət mərkəzində olmuşdu ("Sivis pacem para bellum"). Bu aforizmi gerçəkləşdirən millət daim zəfər qazanib. Və bugün qazandıqlarınız bunu təsdiqləyir.***

***

**Əski Türklərdə özünümüdafiyə meyli olduqca güclü biçimdə inkişaf etmişdi. Bu ənənələr şəklində özünü göstərirdi. Əski Türklərin bu fitri vergisi həyatda çox yüksək səviyyədə gerçəkləşdirilir, gərəkli yönə yönləndirilirdi. Bu məqsədlə hər şeydən öncə təlim-tərbiyyə işinə, cəmiyyətin hər bir üzvünün ləyaqətli yetişdirilməsinə böyük önəm verilirdi. Uşaqlar 3-4 yaşına çatdıqda qoça mindirilərək onlara ox atmaq, yay çəkmək öyrədilirdi. Yeniyetmə həddində olanlar isə dəlisov atlarda təlim keçirdilər. Türklər arasında çeşidli idman ounları, sürək ovları çox geniş yayılmışdı. Bütün bunlar Türklərə çeviklik, dözümlülük və bacarıq aşılayırdı. Həddindən artıq sayıq idilər. Ancaq heç də səksəkə içində yaşamırdılar. Düşmənin basqın xəbərini alan kimi hər kəs öz yerini tutardı.Türklərin ruhunda birdəfəlik belə bir inanc aşılanmışdı: Hər bir basqının qarşısını ancaq cavab basqını ilə almaq olar. Buna görə də onların döyüş taktikaları daha çox hücum üzərində qurulardı. Əslində isə bu hücumlar düşmən təcavüzündən özünüqoruma xarakteri daşıyırdı. Dövrün ən çağdaş silahları ilə silahlanan Türklər çox ustalıqla mükəmməl döyüş taktikalarını tətbiq edirdilər. Onların döyüş taktikası "Turan taktikası" adı ilə dünyaya ün salmışdır.**

### *Ən erkən yaşlardan*

yüksək təlim-təbiyəyə görən Türklərdə ordu ilə xalq eyni idi. Hər bir Türk eyni zamanda əsgər idi. Buna görə də əski Türklərdə ayrıca ordu yoxdu. Halbuki bir çox başqa xalqlar üçün ( o sıradan Qərb) muzdlu ordular xarakterik olmuşdur.

Bütün bunların nəticəsində Türklər zəfərlərlə dolu qəhrəman bir tarix yolu keçmişlər. Yurdlarını düşmənin ələ keçirə biləcəyi fikiri ilə heç vaxt barışmamış, buna mümkünsüz bir şey kimi baxmışlar. Abbasi xəlifəsi əl-Məmunun (813-833) kitabxanasında çalışan bir Türkün sözləri Türk milli xarakterini dəqiq ifadə edən saysız-hesabsız örnəklərdəndir: " İranlılar və Yunanlar ölkələrini başqalarının tutmasına imkan verib öz yurdlarından əsir olmuşlar, Türklər isə ölkələrini heç kimsəyə verməmişlər..."

***Türklər Qərbə axdıqca Qərb onlardan hərb işi, hərb elmi sahəsində çox şeylər öyrəndi,mənimsədi və bu öyrəndiklərini, mənimsədiklərini sonralar Türkün özünə qarşı çevirdi.***

... Ancaq Türklərin bir hissəsi tarixin uğursuz döngələrindən də keçməli oldu: İmperyalizmin sömürgəçi-müstəmləkəçi caynaqları ilə ölüm-dirim çarpışmasına başladı. İmperyazlizm isə bəllidi ki, öz təbiətinə uyğun olaraq əsarət altına aldığı xalqların,millətlərin (?) özünümüdafiyə içgüdüsünü korşaltmağa çalışır. Nəticədə əsarətdə olan ölkənin özünümüdafiyə qabiliyyəti sürətlə axsamağa başlayır. Bu uğursuz taleh Azərbaycanın da payına düşdü.

### *Onillər boyunca imperyalizm*

Azərbaycanın bütün yönlərdə (ən öncə mənəvi yöndə) tərksilah etməyə çalışmış, bunun üçün hər vasitəyə,yöndəmə-metoda əl atmışdır. Bu yolda imperyalizm bir çox məqsədlərinə çatdığı üçün indi ağrı-acılarla əlləşməli olmuşuq...

Bugün artıq yıxıla-qalxa da olsa tam azadlığımıza doğru addımlayırıq. Bugün biz özünümüdafiyə içgüdümüzü tam bərpa etməli, onun həyatda gerçəkləşməsinə nail olmalıyıq. Yoxsa, pis gözlü "qonşularımız"dan, onların havadarlarından çox acılar görəcəyik.

***Bu yolda ən təxirəsalınmaz tədbirlərdən biri Respublikamızda hərbi məktəblər şəbəkəsidir. Bu hərbi işin bütün sahələrini (hərbi hava və hərbi dəniz donanmaları,artilleriya,tank və s.) bürüməlidir. Modern milli hərbi sənaye istehsalın təşkili də sözsüz ki, hərbi məktəblər sisteminin qurulması ilə üzvi şəkildə bağlıdır. Əlbəttə, bunların nə qədər çətin olduğu aydındır. Ancaq hər işin çətinliyi onu başlayana qədərdir. Özünüzün tükənməz imkanlarınız vardır. Əsas iş bu imkanları üzə çıxarıb məqsədyönlü yönləndirməkdir.***

### *Təlim-tərbiyə işində*

milli əsasda köklü dəyişikliklikləri həyata keçirmək milli yararlarımızın-mənafeyimizin tələbidir.Bu bizim ən yararlı yerimizdir. Son vaxtlar milli təhsil konsepsiyasından danışılır. Bizcə, daha geniş olan milli tərbiyə konsepsiyasını işləyib hazırlamaq lazımdır. Söhbət milli tərbiyə konsepsiyasından gedirsə demək, həm də milli ənənələrimizin bərpasından, dirçəlməsindən bunların yaradıcı şəkildə inkişafından gedir. Bəllidir ki, Qərb çevrələri öz milli ənənələrini həmişə demokratiya donu geyindirmiş,onları demokraiya adı ilə başqa xalqlara, xüsusilə Türk-islam dünyasına "sırımağa" çalışmışlar.Bolşevizmin yeritdiyi milli siyasət də əslində Qərbə yardımçı olmuşdur.

***Bütün bunlar irqi ayrıseçkilikdən başqa bir şey deyil. Əslində Qərb və Türk-İslam demokratik ənənələri, ümumiyyətlə, "demokratiya"nın nə olduğu, onun çeşidli çevrələr, təbəqələr tərəfindən necə dərk edildiyi öz yeni elmi aydınlığını, şərhini gözləyir. Bir çox demokratik ənənələri Qərbin məhz Türk-İslam dünyasından mənimsədiyi artıq elmi şəkildə sübut olunmaqdadır. Vaxtilə Ziya Göyalp "Dünyanın ən demokratik xalqı əski Türklər olduğu"nu təsadüfən söyləmirdi. Bu görkəmli sosioloq apardığı dərin elmi araşdırmalar nəticəsində yazırdı: " Başqa millətlər çağdaş mədəniyyətə daxil olmaq üçün keçmişlərindən uzaqlaşmağa məcburdurlar, halbuki, Türklərin çağdaş mədəniyyətə girmələri (daxil olmaları) üçün yalnız əski keçmişlərinə dönüb baxmaları yetərlidir- kifayətdir."***

Milli quruculuq işlərimizdə öz qüvvəmizdən başqa, bizə dostluqla, qardaşlıqla uzanan əllərdən də yararlanmalıyıq və yararlanacayıq. Xüsusilə, bu sahədə qardaş Türkiyənin böyük rolu ola bilər ( və bu rol indidən özünü göstərir). Yeri gəlmişkən qeyd edək ki, Quzey Azərbaycan sözün tam anlamında müstəqil milli dövlətə doğru addımlayarkən "Azərbaycan kimin yolu ilə getməlidir?" sualı yenidən ortaya çıxmışdır. Vaxtı ilə Azərbaycan Demokratik Respublikasının yaşadığı 1918-1920-ci illərdə də belə mübahisələr getmiş, "Azərbaycanın yolu İran, Türkiyə və ya Rusiya yolunu almalıdır " məsələsi üzərində beyinlər qızışmış, fikirlər haçalanmışdı. Oktyabr inqilabının şəfəqlərində, qızmarında "qızışdığımız" illərdə isə sonuncu yolun bizi "ağ günlərə" çıxardığı barədə əfsanələri oxumaqdan, eşitməkdən gözümüz, qulağımız döyənək oldu. Bugün də "Azərbaycanın yolu nə İran, nə Türkiyə, nə Yaponiya, nə də və s. yoludur" kimi fikirləri eşidirik. Əlbəttə, biz "Azərbaycanın öz yolu" fikri ilə canlabaşla razılaşırıq. Ancaq bu "öz yolun" doğru tərifi verilməlidir. Azərbaycanın gələcək taleyi məsələsində Türkiyənin başqa ölkələr ilə eyni müstəviyə qoyulmasında bütün dövrlərdə böyük yanlışlığa yol verilmiş və verilməkdədir.

### *Ən nəhayət,*

onu da deyək ki, bizə yağı kəsilən "qonşularımız" və onların hamiləri həyata keçirəcəyimiz milli quruculuq tədbirlərimizi görüb qaraqışqırıq salacaq, bizə böhtanlar yağdırmağa başlayacaqlar, necə ki, başlamışlar... Burada bir gerçəyə diqqət yetirək: Bugün dünyada öz demokratiyası ilə öyünən və demokratiyanın keşikçisi kimi tanınmış ölkələrdə dünyanın ən qorxunc silah cəbbəxanaları yerləşir və bu ölkələr dünyanın bir çox xalqlarına silah ixrac edirlər! Demək özünü təcavüzdən qorumaq üçün gərək olandan qatqat artıq ən modern silah istehsal etməyə, onun bir hissəsini baha qiymətdə başqalarına satmağa bu demokratların mənəvi haqqı vardır. Bizim kimilərsə gərək müdafiyəmizi təşkil etməyib təcavüz qurbanı olsun. Qəribə və gülməli məntiqdir, elə deyilmi? Ancaq üzdən qəribə görünən, əslində isə qəribə olmayan bu məntiqin hədəfi bəllidir və heç də gülməli deyildir.

**Əgər biz müstəqil dövlətiksə və ya müstəqil dövlət oluruqsa, heç bir qaraqışqırığa, haray-həşirə və böhtana önəm verməmiş, öz milli çıxar yolumuz ilə irəliləməliyik. Çünkü düşmən düşmənliyində qalır və yəqin ki, hələ uzun müddət qalacaqdır. Onun məqsədi bizi arxayınlaşdırmaq, zəif salmaqdır. Bugün gerçəkliyi tam çılpaqlıqla qənşərimizə çıxan və milli ənənələrimizə bağlı olan bu ağıllı sözləri yenidən bütün varlığımızla duymalı və həyata keçirməliyik: " Hazır ol cəngə, əgər istər isən sülhü səlah" ("Əgər sülh və asayiş istəyirsənsə, döyüşə hazır ol!")**

# "Tarın səsi Qarabağdır"

***"Qarabağ musiqi tarixindən danışarkən deyim ki, bu tarix bir müsahibəyə sığmaz. Bu barədə 5-10 kitab da yazsaq, bəs etməz. Üzeyir bəy Hacıbəyovun, Bülbülün, Xan Şuşinskinin, Cabbar Qaryağdıoğlunun üzərində qurulub Qarabağ musiqi tarixi. Bu şəxsiyyətlərin sayəsində Qarabağın musiqisi formalaşıb, gözəl ifalar ərsəyə gəlib. Biz sənətkarların sayəsində muğamı sevirik, musiqi alətlərimizi sevirik. Qarabağ musiqinin beşiyidir". "Ədalət" qəzetinin qonağı tarzən Samir Səlimovdur.***

**-Tara sevgim, bəlkə də, Qarabağlı olmağımdan irəli gəlir...**

-Ötən müsahibəmdə bu fikri səsləndirmişdim. Bəli, tara sevgim Qarabağlı olmağımdan irəli gəlir. Uşaqlığımdan bu yaşıma qədər müxtəlif sahələrdə özümü sınamışam. Valideynlərim idmana yönəldiblər, idmanın müxtəlif növləri ilə məşğul olmuşam. Həmçinin, rəqsə getmişəm, şahmatı öyrənmişəm. Amma sonra tarla məşğul oldum. Tara olan sevgim sonsuzdur. Bəkə də, Ağdamın həsrətindən doğurdu ki, mən tarı seçdim. Bu gün belə tarı, muğamlarımızı sevirəm.

**-Qarabağın əzəli Azərbaycan ərazisi olmasını təsdiqləyən qeyri-maddi nəsnələr yetərincə çoxdur. Məsələn, muğam kimi...**

-Muğam mənim üçün ana laylasıdır. Mənə əziz olan ana laylası kimidir muğam. Bəlli ki, biz uşaqlığımızdan ana laylası ilə böyümüşük. Düşünürəm ki, hər bir muğam həvəskarı olan insanın daxilində böyük ana sevgisi var. Muğamda hər bir şey var. Muğam bizim ifaçıların silahıdır. O silahla çox irəliyə gedə bilərsən. Mənfur düşmənlərimizi mən sadəcə qəbilə adlandırıram. Fikrimcə, onlar hər şeyi oğurlamaq düşüncəsi ilə yaşayırlar. Neçə dəfə çalışıblar ki, Qarabağ musiqisini oğurlasınlar, amma alınmayıb. Xalq artisti, də-



yərli xanəndəmiz Mənsum müəllim müsahibələrindən birində demişdi ki, ermənilərin əgər Qarabağda kökü varsa, niyə muğamlarımızı oxuya bilmirlər? Ermənilər muğamlarımızı oxuya bilməzlər. Onların içində sevgi hissi yoxdur. Çox nankor millətdirlər.

**-Bir az da Qarabağın musiqi tarixindən söhbət açaq...**

-Qarabağ musiqi tarixindən danışarkən deyim ki, bu tarix bir müsahibəyə sığmaz.

Bu barədə 5-10 kitab da yazsaq, bəs etməz. Üzeyir bəy Hacıbəyovun, Bülbülün, Xan Şuşinskinin, Cabbar Qaryağdıoğlunun üzərində qurulub Qarabağ musiqi tarixi.

Bu şəxsiyyətlərin sayəsində Qarabağın musiqisi formalaşıb, gözəl ifalar ərsəyə gəlib. Biz sənətkarların sayəsində muğamı sevirik, musiqi alətlərimizi sevirik. Qarabağ musiqinin beşiyidir. Hətta vaxtilə Şuşa Qafqazın konservatoriyası da adlandırılıb.

**-Ağdamla bağlı hansı arzularınız var?**

-Ağdamla bağlı o qədər arzularım var ki. Rəhmətlik nənəm Ağdam haqqında danışanda həmişə oturub onu dinləyirdim. Mənim üçün Qarabağ sehrli bir aləmdir. O qədər düşünmüşəm ki, Ağdam işğaldan azad olunsun və mən gedim oranı görüm. Arada elə hiss edirəm ki, mən Ağdamda yaşamışam da.

O qədər arzular var. İstərdim, Ağdama qayıdaq. Çox istərdim, Qarabağımız işğaldan azad olunsun, orada mədəniyyət-incəsənət mərkəzləri tikilsin, teatrlar yaradılsın. Və mən də gedib o teatrlara baxım, həmin mərkəzləri görüm. İnşaAllah o gün uzaqda deyil, yaxındadır. Ali Baş Komandanımızın rəhbərliyi və Ordumuzun əzmi ilə o günləri də görəcəyik.

**-Tarın sarı simi var ki, ona toxunanda ürəkləri titrədir. O zaman Şuşa da yada düşür, Ağdam da, Laçın da. Bir sözlə, bütöv Qarabağ göz önündə canlanır...**

-Tar aləti o qədər milli alətdir ki, istər-istəməz onu ifa edəndə Qarabağ göz önündə canlanır. Ona görə də, tarın səsi Ağdamı, Laçını və başqa işğal olunmuş ərazilərimizi yada salır, xatırladır. Tarın səsi Qarabağdır. Bunu hər kəs bilir.

Bu günlərdə qələbələrə nail olmağımız qürurverici bir hissdir. 30 ildən çoxdur, torpaqlarımız işğal altındadır. Şükürlər olsun ki, torpaqlarımız işğaldan azad olunur. Allah Ordumuzu qorusun.

**Rövşən Tahir**

*Ələsgər ƏLİOĞLU*

# BİR TAY AYAQQABI



**Hekayə**

***Yay yır-yığış eləyib köçünü sürməyə hazırlaşırdı. Arxadan payızın hənirtisi gəlirdi. Səhər-axşam havada azacıq da olsa soyuqluq hiss olunurdu. Bankomatdan pensiyasını çıxaran Qarabağ qazisi Nüsrət qoltuq ağacına söykənə-söykənə, küçəylə yavaş-yavaş univermağa yaxınlaşırdı.Ayağındakı tor-tor ayaqqabının ağız-burnu əyilmiş və nimdaş bir görkəm almışdı...***

***O, döyüşlərdə olarkən yaş səngərlərdə uzanmaqdan revmatizm tapdığından həmişəki kimi indi də hiss etdi ki,bədəni çisəkli havadan cimildəşir. Buna görə də univermaqdan bir ayaqqabı almaq fikrinə düşdü...***

***Univermaq çox tünlük idi. Görünür, bu da mövsümi pal-paltar dəyişikliyi ilə bağlıydı... Nüsrət ayaqqabı bölməsinə yaxınlaşdı. Rəfləri bir-bir nəzərdən keçirdi. Baxışları burnu nisbətən enli, qara bir ayaqqabının üstdə bənd aldı. Şəhadət barmağını uzadıb, üzünü satıcı qıza tutdu:***

***-Qızım, o ayaqqabının qırx ikisi varmı?***

***Qız dilləndi:***

***-Var, əmi.***

***-Bir onu verin baxım.***

***-Buyurun, əmi.***

***Nüsrət bölmənin böyür tərəfində qoyulmuş kətildə əyləşib, içi keçəli ayaqqabının sağ tayını ayağına keçirdi. Gördü ki, çox rahatdır və ayaqqabını ayağndan çıxarıb qıza uzatdı:***

***-Qızım, zəhmət olmasa, bunu bir torbaya büküb verin.***

***Sonra əlini qoltuq cibinə atıb almış olduğu pensiyanın üstdən bir "iyirmilik" çıxartdı:***

***-Buyurun, pulunuzu götürün.***

***Satıcı qız pulu alıb ayaqqabinı torbaya qoymaq istəyərkən Nüsrət dilləndi:***

***-Sol tayı lazım deyil, a bala, mənə yük eləməyin...Sağ tayını bükün ...***

***Bayaqdan bəri alış-veriş sıxlığından Nüsrətə elə də dərindən nəzər yetirə bilməyən satıcı qız tərəddüd içərisində:***

***-Əmi, biz ayaqqabının bir tayını satmırıq,-deyə şübhəli baxışlarla onu süzdü və sonra azacıq ayağının ucuna qalxaraq piştaxtanın qarşısında dayanan Nüsrətə dərindən nəzər yetirdi...İndi ona hər şey aydın oldu.***

***Satıcı qız anidən fikrə getdi. Sonra duruxmuş və kövrək bir halda dilləndi***

***-Əmi, onda pulunuzun qalığını götürün, on manatdır...***

***-Yox, ay qızım, pulu tam ödəməliyəm. Elə də şey olar. Sadəcə olaraq ayaqqabının sol tayını özümə yük eləmək istəmədim. Bir də ki, bu ayaqqabının sol tayını kim alacaq ki? Pulunu ödəməliyəm...***

***Satıcı qız :***

***-Mən götürərəm, əmi, heç narahat olmayın!***

***Nüsrət özünü itirən kimi oldu:***

***-Nə danışırsınız, qızım? Yoxsa məni sarıyırsiniz?***

***-Yox, yox, əmi,niyə elə düşünürsünüz!? Atamın da ayaqqabısı çox köhnəlib...Onun da ayağının ölçüsü qırx ikidir... Atam Qarabağ müharibəsi veteranıdır.Cəbhədə sağ ayağını itirmişdir...***

***Nüsrət könüllü-könülsüz pulun qalığını alıb cibinə qoydu və satıcı qıza "sağ ol" deyib, qoltuq ağacına söykənə-söykənə bayıra çıxdı...***

***Narın-narın yağan yağış artıq yeri islatmışdı... Nüsrət küçə boyu cərgələnən tikililərdən birinin divarına söykənib yeni aldığı ayaqqabını bir təhər ayağına taxdı və yoluna davam etdi...***

***Daha bədəninin cimildəşməsi güney qarı kimi əriyib gedirdi. Bayaqdan fikir burulğanında burum-burum burulan bir sual onda nigarançılıq doğururdu...Yol boyu düşünürdü ki, onun ayaqqabısının sol tayını geyinəcək adam görəsən indi yağışın altda deyil ki...***

## Messi az qol vurmasının səbəbini açıqladı



***"Barselona"nın kapitanı Lionel Messi son vaxtlar az qol vurmasının səbəbini açıqlayıb.***

***Qol.az xəbər verir ki, argentinalı hücumçu "La Garganta Podero" jurnalına müsahibəsində daha çox ötürmə verməyə çalışdığını bildirib: "İndi qollar üzərində az işləyirəm. Daha çox komanda oyununa, ötürmələrə üstünlük verirəm. Bununla komandaya fayda verməyə çalışıram" - deyə o bildirib.***

***Qeyd edək ki, bu mövsüm La Liqada 3 oyuna çıxan Messi 1 qol vurub.***

# AFFA-dan Avro-2020 açıqlaması

**"Bu günə qədər UEFA-dan AVRO-2020-də dəyişiklik və ya araşdırma məqsədi ilə bağlı AFFA-ya heç bir sorğu daxil olmayıb".**

Qol.az xəbər verir ki, bu sözləri apasport.az-a açıqlamasında AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov deyib.

Böyük Britaniyanı "Sun" nəşrinin koronavirus pandemiyası, həmçinin Dağlıq Qarabağda baş verən hadisələrə görə Avropa çempionatının Bakıdan alınma ehtimalına münasibət bildirən Məmmədov hazırda bunun gündəmdə olmadığını söyləyib: "Bildiyiniz kimi, Avro-2020 bu ilin iyun-iyul aylarında təşkil olunmalı idi. Lakin təəssüf ki, koronavirus pandemiyası elan olunduğu üçün UEFA-nın İcraiyyə Komitəsinin qərarına əsasən, yarış bir il-lik təxirə salınıb. Son günlər beynəlxalq və yerli mediada turnirin yerli for-



matı ilə bağlı müxtəlif fikirlər eşidirik. Ancaq komitənin son qərarına əsasən, AVRO-2020 Bakı da daxil olmaqla 12 şəhərdə təşkil olunacaq. Həmin yarış 2021-ci ilin iyun-iyul aylarında keçiriləcək. UEFA-dan hər hansı bir məlumat alsaq, bunu ictimaiyyətə bildirəcəyik".

**Qeyd edək ki, 12 ölkədə keçirilməli olan Avro-2020 koronavirus səbəbindən 2021-ci ilə təxirə salınıb.**

DİN-in Quba rayon Polis Şöbəsi tərəfindən Kəbirov Nurlan Rövşən oğlunun adına verilmiş AZE 56737 seriya nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Məmmədova Aidə Məmməd qızının adına verilmiş Bakı şəhər, 2-ci cıdır döngəsi ev 51 saylı fərdi yaşayış evinin seriya FM 016887 Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Həsənova Aynur Eldar qızının adına 25 nömrəli tam orta məktəb tərəfindən verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

Dövlət Musiqili Teatrının direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev ailə üzvləri ilə birlikdə **Məhəmmədəli Salmanova** oğlu

**Elçin Məhəmmədəli oğlunun**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS

**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 25**
Çapa imzalanmışdır: 16.10.2020